ADVISORY COMMITTEE ON THE FRAMEWORK CONVENTION FOR THE PROTECTION OF NATIONAL MINORITIES

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

ACFC/SR/V(2022)004
Azerbaijani language version

# Fifth Report submitted by Azerbaijan

## Pursuant to Article 25, paragraph 2 of the Framework Convention for the Protection of National Minorities – received on 17 October 2022

ACFC/SR/V(2022)004

# Azərbaycan Respublikası Hökumətinin Avropa Şurasının “Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası” üzrə Beşinci Dövri Məruzəsi

# Giriş

Avropa Şurasının (AŞ) “Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası”nın (bundan sonra “Çərçivə Konvensiyası”) 25-ci maddəsinin 2-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Hökuməti 2016-2021-ci illər üzrə beşinci dövri məruzəsini (bundan sonra “Məruzə”) təqdim edir. Məruzə Çərçivə Konvensiyasının müddəaları, Azərbaycanın dördüncü dövri məruzəsinə münasibətdə AŞ Məşvərətçi Şurasının 2017-ci il 8 noyabr tarixli ACFC/OP/IV(2017)006 nömrəli rəyi və Çərçivə Konvensiyasının həyata keçirilməsi üzrə Azərbaycanla bağlı AŞ Nazirlər Komitəsinin 2021-ci il 3 fevral tarixli CM/ResCMN(2021)7 nömrəli qətnaməsindəki tövsiyələri nəzərə alınaraq, aidiyyəti dövlət qurumlarından ibarət yaradılmış işçi qrupu tərəfindən hazırlanmışdır.

Azərbaycan ərazisində 30-dan çox etnik xalqların nümayəndələri yaşayırlar. Bu gün Azərbaycan etnoqrafik rəngarəngliyi ilə seçilir. Sayı, dil və dinlərinin müxtəlifliyinə baxmayaraq, onlar Azərbaycanın bərabərhüquqlu vətəndaşlarıdır.Həmin etnik qrupların nümayəndələri özlərini azərbaycanlı saysalar da, hər bir qrup özünəməxsus fərqli mədəniyyətin elementlərini qoruyub saxlamışdır. Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsində insan hüquq və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi kimi təsbit olunmuşdur. Azərbaycan Respublikasında yaşayan milli azlıqlara mənsub olan şəxslərin hüquq və azadlıqları ölkə Konstitusiyasının 25-ci (“Bərabərlik hüququ”), 44-cü ("Milli mənsubiyyət hüququ") və 45-ci ("Ana dilindən istifadə hüququ") maddələri və digər normativ hüquqi aktlarla qorunur.

Azərbaycan Respublikası insan haqları, o cümlədən etnik azlıqların və azsaylı xalqların hüquqlarının müdafiəsi məqsədilə bir çox nüfuzlu beynəlxalq təşkilatlarla işgüzar əməkdaşlıq əlaqələrinə malikdir. Azərbaycan Respublikası insan haqları və milli azlıqlara mənsub olan şəxslərin müdafiəsi ilə bağlı 50-dən çox beynəlxalq konvensiyanın, o cümlədən “İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası”nın, “İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya”nın, “Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında Konvensiya”nın və insan hüquqları sahəsində digər əsas beynəlxalq və regional sənədlərin tərəfidir. Azərbaycan Konstitusiyasına əsasən Azərbaycan Respublikası tərəfdar çıxdığı beynəlxalq müqavilələr ölkəmizin qanunvericiliyinin tərkib hissəsi sayılır.

Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası üzrə Məşvərətçi Komitənin Rəyi, Azərbaycan Respublikası Hökumətinin şərhləri və “Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası”nın həyata keçirilməsi üzrə qətnamə tərcümə olunmuş, dövlət qurumları və qeyri-hökumət təşkilatlar arasında yayılmışdır.

# I Hissə

***AŞ Nazirlər Komitəsinin 2021-ci il 3 fevral tarixli CM/ResCMN(2021)7 nömrəli qətnaməsindəki əsas tövsiyələrinin icrası üzrə görülmüş tədbirlər***

*a) Azərbaycan əhalisinin multikultural xarakterini əks etdirmək üçün 2019-cu ildə əhalinin siyahıya alınmasının kimliyi (self-identification) azad və könüllü şəkildə müəyyən etmək və çoxsaylı mənsubiyyətləri və birdən çox ana dilini göstərmək imkanı verməsini təmin etmək:*

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2019-cu ildə keçirilmiş əhalinin siyahıyaalınmasının məlumatları hazırda hazırlanmaqdadır və onun yekunlarına dair statistik məlumatlar 2022-ci ilin sonunadək hazır olacaqdır. Eyni zamanda qeyd etmək lazımdır ki, 2019-cu ildə Azərbaycanda keçirilmiş əhalinin siyahıyaalınmasının siyahıyalma və sorğu vərəqələri, o cümlədən etnik mənsubiyyətə və ana dilinə dair suallar BMT-nin “2020-ci il mərhələsində əhali və mənzil fondunun siyahıyaalınmalarının keçirilməsinə dair Avropa statistikləri konfransının tövsiyələri”, “Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik”dən irəli gələn öhdəliklər, MDB-nin iştirakçısı olan dövlətlərin statistika xidmətləri rəhbərləri Şurasının 57-ci iclasının müvafiq qərarı nəzərə alınmaqla hazırlanmış, bütün maraqlı tərəflərlə, həmçinin Azərbaycanda akkreditə olunmuş BMT-nin Əhali Fondunun, BMT-nin Uşaq Fondunun, BMT-nin İnkişaf Proqramının, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının, Beynəlxalq Əmək Təşkilatının, Beynəlxalq Miqrasiya Təşkilatının nümayəndələri ilə ətraflı müzakirə edilmiş və Əhalinin Siyahıyaalınmasına Yardım üzrə Mərkəzi Komissiyada təmsil olunan 19 dövlət qurumu, razılaşdırılaraq Dövlət Statistika Komitəsinin 2018-ci il 16 aprel tarixli sərəncamı ilə təsdiq edilmişdir. “Milli (etnik) mənsubiyyətiniz” sualı, “Ana diliniz” sualı və “Hansı dillərdə sərbəst danışa bilirsiniz”, “Evdə adətən hansı dildə danışırsınız” altsualları da daxil olmaqla sorğu vərəqəsinin bütün sualları beynəlxalq metodologiyaya uyğun olaraq sorğu zamanı respondentlərdən hər hansı bir sənəd tələb olunmadan onların özləri tərəfindən sərbəst cavablandırılmışdır.

*b) milli azlıqlara mənsub şəxslərlə yaxından məsləhətləşməklə, milli azlıqların müdafiəsi üçün adekvat hüquqi çərçivə və ayrı-seçkiliyə qarşı hərtərəfli qanunvericilik aktı qəbul etmək, milli azlıqların müdafiəsi ilə bağlı məsələləri koordinasiya etmək üçün ixtisaslaşmış bir orqan təsis etmək, və milli azlıqların nümayəndələrinə, onlara təsir edən qərar qəbuletmə proseslərində səmərəli iştirak etmək imkanı yaratmaq:*

Multikulturalizmi dövlət siyasəti kimi qəbul edən Azərbaycanda etnik-mədəni müxtəlifliklər multikulturalizm siyasəti vasitəsilə uğurla, səmərəli şəkildə tənzimlənir. Multikulturalizmin Azərbaycan Respublikasının dövlət siyasəti olmasının mühüm təzahürlərindən biri burada dövlət-din münasibətlərinin yüksək səviyyədə olmasındadır. Azərbaycan Respublikası Prezidentinin 15 may 2014-cü il tarixli Fərmanı ilə Bakı Beynəlxalq Multikuliuralizm Mərkəzi (BBMM) yaradılmışdır. Mərkəzin fəaliyyətində məqsəd və onun başlıca vəzifələri Azərbaycançılıq məfkurəsinə uyğun olaraq tolerantlığın və mədənimüxtəlifliyin qorunmasını təmin etmək, multikulturalizmin və tolerantlığın həyat tərzinə çevrildiyi Azərbaycan gerçəkliyinin

mədəni, sosial, siyasi mahiyyətini öyrənmək və təbliği mexanizmini işləyib hazırlamaq, Azərbaycan Respublikasında mədəni, dini müxtəlifliyin tolerant əsaslarının elmi-praktiki təhlilini aparmaq, müvafiq dövlət strukturları üçün tövsiyələr hazırlamaq, aidiyyəti elmi qurumlarla əlaqəli şəkildə Azərbaycan Respublikasının müxtəlif bölgələrində qədim mədəniyyət izlərini axtarmaq (arxeoloji tədqiqatları "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təşkil etmək), mədəni, etnoqrafik irsin toplanıb elmi şəkildə öyrənilməsini və qorunmasını həyata keçirmək, mədəniyyət, elm və digər sosial sahələrdə özünü göstərə bilən, şəxsiyyətin mənəvi bütövlüyünün həmahəng inkişafına mane olan müəyyən çatışmazlıqların sistemli şəkildə aradan qaldırılması istiqamətində layihələr gerçəkləşdirmək və s. BBMM nəzdində milli azlıqlara mənsub olan şəxslərin etnik-mədəni təşkilatlarının təmsil olunduğu Koordinasiya Şurası fəaliyyət göstərir.

Milli azlıqlara mənsub olan şəxslərin müdafiəsində dövlətin multikulturalizm siyasətinə elmi-nəzəri zəmin yaratmaq, elmi metod və prinsiplərlə həmin siyasətin reallaşdırılmasına dəstək vermək üçün Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Fəlsəfə və Sosiologiya İnstitutunda ardıcıl tədbirlər keçirilmiş, İnstitutda AMEA Rəyasət Heyətinin qərarı ilə Multikulturalizm şöbəsi yaradılmış, onun tədqiqat sahəsi müəyyənləşdirilmişdir. Eyni zamanda, yeni təşkil edilən Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq fəlsəfəsi, İnformasiya cəmiyyətinin fəlsəfəsi, İslam fəlsəfəsi şöbələrində də milli, dini azlıqlar və tolerantlıqla bağlı məsələlər tədqiqat planlarına daxil edilmiş və araşdırmaya cəlb edilmişdir. Mütəmadi olaraq milli azlıqlara mənsub olan şəxslərin, dini konfessiyalarla əlaqədar məsələlərin nəzəri və təcrübi cəhətlərinə dair İnstitutda elmi-nəzəri konfranslar, seminarlar, dəyirmi masa tədbirləri keçirilmiş, elmi əməkdaşlar tərəfindən hazırlanmış kitab və məqalələrin təqdimatı və müzakirəsi təmin edilmiş, tövsiyələr və təkliflər hazırlanaraq mətbuatda dərc edilmişdir.

Milli azlıqların qərar qəbul etmə prosesində iştirakı ilə bağlı məsələlər qanunvericilikdə birbaşa tənzimlənməsə də, mövcud qanunvericilikdə, o cümlədən Azərbaycan Respublikası Konstitusiyasının 25, 54-56, 85, 100, 121 və 126-cı maddələrində, "Dövlət qulluğu haqqında" Qanunun 27.1-ci maddəsində, "Bələdiyyələrin statusu haqqında" Qanunun 3-cü maddəsində milli azlıqlara mənsub olan vətəndaşların dövlət orqanlarında vəzifələrə seçilməsində (təyinatında) hər hansı bir məhdudiyyət nəzərdə tutulmamışdır.

Vətəndaş cəmiyyətinin qərar qəbuletmə prosesində iştirakı artmağa davam edir. Yerli və mərkəzi icra hakimiyyəti orqanları yanında ictimai şuralar fəaliyyət göstərir. Bu ictimai şuraların təmsilçiləri Qeyri Hökumət Təşkilatlarıdır (QHT). Onlar təmsil olduğu hər bir qurumun qərar qəbuletmə prosesində (maliyyə məsələləri, hər-hansı qanun layihəsinin parlamentə (Milli Məclisə) təqdim edilməsi və s.) iştirak edirlər. Parlament bütün qanun layihələrinin müzakirələrinə QHT-ləri dəvət edir. Bu isə vətəndaş cəmiyyətinin qərar qəbuletmə prosesində iştirakının ən mühüm amillərindən biridir. Azərbaycan Respublikası Qeyri Hökumət Təşkilatlara Dövlət Dəstəyi Agentliyi isə bu məsələdə yerli və mərkəzi icra hakimiyyəti orqanları yanında ictimai şuralara məsləhətlər verir.

*c) ifadə azadlığı və toplaşmaq azadlığına qarşı olan maneələri aradan qaldırmaq və milli azlıqlara mənsub şəxslərin kimliklərini ifadə etmək, narahatlıqlarını dilə gətirmək və ictimai qərarların qəbul edilməsində həm fərdi olaraq, həm də başqaları ilə birlikdə iştirak etmələri üçün dəstəkləyici tədbirlər görmək:*

Fikir və söz azadlığı, vicdan azadlığı, sərbəst toplaşmaq azadlığı və birləşmək hüququ, həmçinin azad sahibkarlıq hüququ Azərbaycan Respublikası Konstitusiyasının 47, 48, 49, 58 və 59-cu maddələrində öz təsbitini tapmışdır. Milli azlıqların və azsaylı xalqların Azərbaycanda fəaliyyət göstərən başlıca təşkilatları, milli mədəniyyət mərkəzləri aşağıdakılardır:

“Ronayi” Kürd Mədəniyyət Mərkəzi, «Samur» Ləzgi Milli Mərkəzi, Ləzgi Mifologiyasını Öyrənmə Mərkəzi, Ləzgi Gənclər Mərkəzi, «Dağıstan» Mədəniyyət Mərkəzi, Azərbaycanda Ukrayna İcması, «Saxur» Mədəniyyət Mərkəzi, Talış Mədəniyyət Mərkəzi, «Orayin» Udi Mədəniyyət Mərkəzi, Alban-Udi xristian dini icması, Avar Milli Mədəniyyət Mərkəzi, «Lahıc» Xeyriyyə Cəmiyyəti, «Azəri» Tat Mədəniyyət Mərkəzi, Azərbaycanda Rus İcması İctimai Birliyi, Azərbaycan Slavyanlarının Mədəniyyət Mərkəzi, «Sodrujestvo» Cəmiyyəti, «Tuğan tel» Tatar Mədəniyyət Cəmiyyəti, Azərbaycan Tatar İcması, «Yaşlek» Azərbaycan Tatar Gəncləri Mərkəzi, Azərbaycan Gürcü İcması, Axıska türklərinin «Vətən» Cəmiyyəti, Axıska türklərinin «Axıska» Mədəniyyət Mərkəzi, «Buduq» Mədəniyyət Mərkəzi, «Şahdağ» Mədəniyyət Mərkəzi, Avropa Yəhudiləri dini icması, Azərbaycan Dağ Yəhudiləri dini icması, Gürcü Yəhudiləri dini icması, «Soxnut» yəhudi agentliyi, Yəhudi Mədəniyyət Mərkəzi, Azərbaycan-İsrail Dostluq Mərkəzi, «Hesed-Xerşon», «Coynt» və «Vaad-l-Xetzola» yəhudi xeyriyyə cəmiyyətləri, «Yeva» Qadın Cəmiyyəti, «Alef» yəhudi gənclər klubu, «Hilel» Yəhudi Tələbələrinin Mədəniyyət Mərkəzi, «İudaika» Beynəlxalq Cəmiyyəti, Alman Milli Mədəni Cəmiyyəti, «Xınalıq» Mədəniyyət Mərkəzi, «Azərbaycan-Bolqarıstan Dostluğunun İnkişafına Yardım» İctimai Birliyi.

Azərbaycanda yüzillər boyu sülh və əmin-amanlıq şəraitində yaşayan etnik xalqların icma və təşkilatlarının əsas fəaliyyəti təmsil etdikləri xalqların müxtəlif mədəni-kütləvi tədbirlərini təşkil etmək, bu fəaliyyəti öz dillərində nəşr etdikləri mətbu orqanlarda yaymaq, habelə orta məktəblərdə ana dillərində təhsil almalarını təşkil etməkdən ibarətdir. Bu qurumlar daim dövlətin diqqət və himayəsi altında fəaliyyət göstərirlər. Belə ki, milli icmalara müxtəlif fəaliyyətlərin, mədəni-kütləvi tədbirlərin həyata keçirilməsində təşkilati dəstəklə yanaşı, mütəmadi olaraq maliyyə yardımları da göstərilir.

*d) Milli azlıqlara mənsub olan şəxslərin dillərinin tədrisinin əhatə dairəsini genişləndirmək, azlıqların dillərini öyrənmək hüququ haqqında məlumat vermək, bu cür tədrisə olan tələbat və tələbləri müntəzəm olaraq qiymətləndirmək və universitet səviyyəsində müəllim hazırlığını təmin etməklə tədrisin keyfiyyətini səmərəli şəkildə artırmaq:*

Azərbaycanda ümumtəhsil məktəblərində azsaylı xalqların yaşadıqları ərazilərdəki ümumi təhsil müəssisələrində milli azlıqlara mənsub olan şəxslərin övladları ümumi təhsilə bərabərhüquqlu cəlb edilir, ana dillərini öyrənmələri üçün hər tədris ilində tədris planlarında

həftəlik 2 saat ayrılır. Ləzgi dili I-IX, ivrit dili I-XI, digər dillər isə (talış, avar, saxur, udi, kürd, xınalıq) I-IV siniflərdə tədris olunur.

Respublika üzrə 378 ümumtəhsil məktəbində milli azlıqlara mənsub 30817 şagird öz ana dilini öyrənməkdədir. Belə ki, 2020/2021-ci tədris ilində Talış dili tədris olunan məktəblərin sayı 254, şagird sayı 20240 nəfər, Avar dili tədris olunan məktəblərin sayı 19, şagird sayı 1700 nəfər, Ləzgi dili tədris olunan məktəblərin sayı 95, şagird sayı 8005 nəfər, İvrit dili tədris olunan məktəblərin sayı 2, şagird sayı 123 nəfər, Saxur dili tədris olunan məktəblərin sayı 3, şagird sayı 441 nəfər, Xınalıq dili tədris olunan məktəbin sayı 1, şagird sayı 101 nəfər, Udin dili tədris olunan məktəblərin sayı 3, şagird sayı 176 nəfər və Kürd dili tədris olunan məktəbin sayı 1, şagird sayı 31 nəfərdir (statistik məlumatlar Əlavə 1-də). Respublikada gürcü dilində tədrisi aparılan 10 ümumtəhsil məktəbi mövcuddur. Bu məktəblər Qax (7 məktəb), Zaqatala (2 məktəb) və Balakən (1 məktəb) rayonlarında fəaliyyət göstərir. Bununla yanaşı, Bakı şəhəri 46 nömrəli məktəbdə yəhudilərin təhsil aldığı siniflər fəaliyyət göstərir və ivrit dili tədris olunur. Qeyd olunan məktəbdə 2020-2021-ci tədris ilində 50 nəfər yəhudi şagird təhsil almışdır.

Milli azlıqlara mənsub olan şəxslərin mədəni irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi məqsədilə onların dilində yeni kurikulum əsasında ana dili dərsliklərinin hazırlanması istiqamətində tədbirlər həyata keçirilmiş, avar dili (I-IV sinif), ləzgi dili (I-IV sinif), saxur dili (I-IV sinif), xınalıq dili (I-IV sinif) və talış dili (I-IV sinif) üzrə yeni dərsliklərin hazırlanması işi başa çatdırılmışdır. Həmçinin 2017-ci ildə V-X sinif və 2018-ci ildə XI sinif dərslikləri gürcü dilinə tərcümə edilmişdir.

Tədris gürcü dilində aparılan ümumtəhsil məktəblərinin şagirdləri üçün 2016-2017-ci tədris ilinə V-IX siniflər üçün 58 adda 11600 nüsxə, 2017-2018-ci tədris ilinə X siniflər üçün 9 adda 1800 nüsxə, 2018-2019-cu tədris ilinə XI siniflər üçün 9 adda 756 nüsxə, 2020-2021-ci tədris ilinə 9 adda 1076 nüsxə tərcümə və çap olunub yerlərə çatdırılmışdır. 2021-2022-ci tədris ili üçün 1222 dərslik və 2 metodiki vəsait göndərilməsi nəzərdə tutulur. Azərbaycan Respublikasının Prezidentinin 2018-ci il 29 oktyabr tarixli Sərəncamı ilə 2018-ci ilin noyabr ayından Qax rayonu Əlibəyli kəndində tədris dili gürcü dilində aparılan Şota Rustaveli adına Əlibəyli kənd tam orta məktəb binasının tikintisi həyata keçirilmişdir.

Milli azlıqlara mənsub olan şəxslərin kompakt yaşadığı Lənkəran bölgəsində müəllim hazırlığı ilə məşğul olan Lənkəran Dövlət Universiteti, Qubada Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialı, Şəkidə Şəki filialı, eyni zamanda həmin bölgələrdə müəllim hazırlığı ilə məşğul olan kolleclər fəaliyyət göstərir ki, bu da milli azlıqlara mənsub olan şəxslərin təhsil imkanlarının genişləndirilməsinə xidmət edir.

Azsaylı xalqların dillərində təlim aparan müəllimlər müvafiq qaydalara uyğun olaraq vaxtaşırı ixtisasartırma kursundan keçirilirlər. Təhsil Nazirliyində milli azlıqlara mənsub olan şəxslərin dillərində dərs vəsaitlərinin və proqramlarının hazırlanması və nəşri üzrə Şura fəaliyyət göstərir.

# II Hissə

## Çərçivə Konvensiyasının maddələr üzrə həyata keçirilməsinə yönəlmiş tədbirlər

**Maddə 4***: 1. Tərəflər milli azlığa mənsub olan hər bir şəxsin qanun qarşısında bərabər olmaq və qanunla bərabər müdafiə olunmaq hüququna zəmanət verirlər. Bununla əlaqədar olaraq, milli azlığa mənsubluğa əsaslanan hər cür ayrı-seçkilik qadağan olunur. 2. Tərəflər, lazım gəldiyi hallarda, milli azlıqlara mənsub şəxslərlə əhalinin əsas qrupuna mənsub şəxslər arasında iqtisadi, sosial, siyasi və mədəni həyatın bütün sahələrində bərabərliyi təşviq etmək məqsədilə lazımi tədbirlər görməyi öhdələrinə götürürlər. Bununla əlaqədar olaraq, tərəflər milli azlıqlara mənsub şəxslərin xüsusi vəziyyətini lazımi qaydada nəzərə alırlar. 3. İkinci bəndin müddəalarına müvafiq şəkildə görülən tədbirlərə ayrı-seçkilik aktı kimi baxılmır.*

Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsində insan hüquq və azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi kimi təsbit edilmişdir. Dövlət, irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətdən asılı olmayaraq, hər kəsin hüqüq və azadlıqlarının bərabərliyinə təminat verir.

Konstitusiyanın qeyd edilən müddəaları, milli qanunvericilik, Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq sənədlər, o cümlədən “Milli azlıqların müdafiəsi haqqında” Çərçivə Konvensiyası rəhbər tutularaq Respublikada yaşayan əhalinin hər bir təbəqəsinə və etnik qruplara sərbəst surətdə konstitusion hüquq və azadlıqlardan istifadə edilməsi üçün şərait yaradılmıdır. Azərbaycanda ictimai-siyasi sabitlik, vətəndaş həmrəyliyi və etnik-dini dözümlülük əvvəlki illərdə olduğu kimi bu gün də mövcuddur. Bütün millətlərin nümayəndələrinə yanaşma eynidir və hər bir dəyərə, hər bir fərqliliyə hörmət edilir.

İrqçilik və ksenofobiya hallarının baş verməməsi üçün bütün lazımi tədbirləri həyata keçirir. Konstitusiya ilə müəyyən edilmiş bərabərlik hüququna dövlət tərəfindən təminat verilməsinin və bu sahədə görülən əməli tədbirlərin məntiqi nəticəsi olaraq, Respublikada milli, irqi düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli və irqi mənsubiyyətindən asılı olmayaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərin əldə edilməsinə yönələn hərəkətlər, eləcə də bərabərlik hüququnun pozulmasına səbəb ola biləcək problemlərin vaxtında aradan qaldırılması üçün lazımi tədbirlər həyata keçirilir, onların müraciətlərinə həssaslıqla yanaşılır.

2016-cı il 26 sentyabr tarixli Referendum Aktı ilə Azərbaycan Respublikasının Konstitusiyasına bir sıra dəyişikliklər edilmişdir. Dəyişikliklər nəticəsində Konstitusiyanın 25-ci maddəsinin III hissəsində dövlətin irqindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyəti ilə bərabər, həmçinin etnik mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verdiyi göstərilmiş, insan və vətəndaş hüquqlarını və azadlıqlarını etnik mənsubiyyətə görə məhdudlaşdırmaq qadağan olunmuşdur. Bundan başqa

Konstitusiyanın 47-ci maddəsinin III hissəsinə edilmiş dəyişikliklə yalnız irqi, milli, dini, sosial deyil, eyni zamanda hər hansı digər meyara əsaslanan ədavət və düşmənçilik oyadan təşviqata və təbliğata yol verilmədiyi bəyan edilmişdir. Qeyd olunan dəyişikliklərlə əlaqədar uyğunlaşdırılma çərçivəsində qanunvericiliyə ("Təhsil haqqında", "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası qanunları, Seçki Məcəlləsi, Nazirlər Kabinetinin 2012-ci il 2 oktyabr tarixli qərarı ilə təsdiq edilmiş "Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi", Nazirlər Kabinetinin 2013-cü il 29 dekabr tarixli qərarı ilə təsdiq edilmiş "İlk peşə-ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi" və s.) müvafiq dəyişikliklər nəzərdə tutan, həmçinin digər müvafiq normativ hüquqi aktların layihələri hazırlanmış və aidiyyəti üzrə təqdim olunmuşdur.

2017-ci il 30 iyun tarixli "Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında" Qanunun 8-ci maddəsində deputatın vəzifələrini icra edərkən qərəzsiz olması, vəzifələrinin icrası zamanı irqinə, etnik mənsubiyyətinə, dilinə, cinsinə, sosial mənşəyinə, əmlak və qulluq vəziyyətinə, dinə münasibətinə görə hər hansı şəxsin və ya şəxslər qrupunun üstünlüyünə, yaxud bu cür üstünlüyün əldə edilməsi üçün şərait yaradılmasına yol verməməli olduğu müəyyən olunmuşdur. Analoji müddəa 2017-ci il 31 may tarixində qəbul edilmiş "Bələdiyyə üzvlərinin etik davranış qaydaları haqqında" Qanunun 7.1-ci maddəsində də öz əksini tapmışdır.

"Məşğulluq haqqında" 2018-ci il 29 iyun tarixli Qanunun 8.0.4-cü maddəsində dövlətin məşğulluq sahəsində əsas vəzifələrindən biri kimi irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, sağlamlıq imkanlarının məhdudluğu (onların məhdud imkanlarına görə həyata keçirilməsi çətinləşən hallardan başqa) və ailə vəziyyətindən, ictimai-sosial mənşəyindən, yaşayış yerindən, əmlak vəziyyətindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq bütün şəxslərə əmək və məşğulluğu sərbəst seçmək hüququnun həyata keçirilməsində bərabər imkanların təmin edilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Əmək Məcəlləsinin 16-cı maddəsinin 3-cü və 4-cü hissələrinə əsasən əmək münasibətləri prosesində işçilər arasında bu maddənin birinci hissəsində göstərilən ayrı-seçkiliyə yol verən işəgötürən və ya digər fiziki şəxs qanunvericilikdə nəzərdə tutulmuş qaydada müvafiq məsuliyyət daşıyır. Ayrı-seçkiliyə məruz qalan işçi pozulmuş hüququnun bərpa edilməsi tələbi ilə məhkəməyə müraciət edə bilər. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 154-cü maddəsinin 2-ci hissəsinə əsasən Məcəllənin 16-cı maddəsində nəzərdə tutulmuş ayrı-seçkiliyə yol verilməməsi prinsiplərini pozaraq işçilərin əmək haqqı məbləğinin hər hansı şəkildə azaldılması və onlara dövlətin müəyyən etdiyi minimum əmək haqqı miqdarından az əmək haqqı verilməsi qadağan edilir.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nda irqindən, etnik mənsubiyyətindən, dinindən və dilindən asılı olmayaraq işsizlərin, işə düzəlməkdə çətinlik çəkən şəxslərin sosial müdafiəsinin gücləndirilməsi, əmək bazarına inteqrasiya olunması, aktiv məşğulluq tədbirlərinə cəlb olunması, əmək bazarının təkmilləşdirilməsi, əmək ehtiyatlarının

keyfiyyətcə yaxşılaşması və rəqabətqabiliyyətliliyinin artması, iqtisadi fəallığın yüksəlməsi üçün əlverişli şərait yaradılması istiqamətində tədbirlər öz əksini tapmışdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən sosial xidmət sisteminin formalaşdırılması istiqamətində ölkə siyasətini, sosial inkişafın mahiyyətini və tənzimləmə mexanizmlərini özündə əks etdirən “2021-2027-ci illərdə Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair Milli Strategiya” layihəsi hazırlanmışdır. Qeyd olunan sənəddə sosial müdafiə sahəsində bütün vətəndaşların bərabər hüquqlardan istifadə etməsi nəzərdə tutulmuşdur. Şəxsin etnik mənsubiyyətindən asılı olaraq ona münasibətdə hər hansı bir məhdudiyyətin tətbiqi nəzərdə tutulmur və ayrı-seçkiliyə yol verilmir.

Sosial yardım proqramlarından biri olan “Sosial müavinətlər haqqında” Azərbaycan Respublikasının Qanunu 2006-cı ildən etibarən qüvvəyə minib. Sosial müavinətlər və təqaüdlər əmək pensiyası almaq hüququ olmayan şəxslərə verilir və onların yaşayışını minimal səviyyədə təmin etmək məqsədi daşıyır və etnik mənsubiyyətdən asılı olaraq heç bir ayrı-seçkiliyə yol verilmir. Ölkədə yoxsulluğun azaldılmasına yönəldilmiş sosial yardım proqramlarından biri olan ünvanlı dövlət sosial yardım proqramıdır. Sosial yardım ünvanlılıq, ədalətlilik və bərabərlik prinsipi gözlənilməklə bütün aztəminatlı ailələrə təyin edilir. Hər iki proqram üzrə yardım təyin olunarkən etnik mənsubiyyətdən asılı olaraq heç bir ayrı-seçkiliyə yol verilmir.

“Əhalinin sağlamlığının qorunması haqqında Azərbaycan Respublikasının Qanunu”nun 1, 2, 10-cu maddələrinə əsasən Azərbaycan Respublikasında Dövlət səhiyyə müəssisələrində səhiyyə xidmətləri pulsuzdur və dövlət milliyyətindən, dini, irqi və cinsi mənsubiyyətindən asılı olmayaraq hər bir kəsin bu xidmətlərdən istifadə etmək hüququna təminat verir.

Ötən müddət ərzində Azərbaycan Respublikası Prezidentinin sərəncamlarına əsasən, milli azlıqlara mənsub olan şəxslərin kompakt yaşadıqları cənub, şimal-qərb və şimal bölgələrində sosial-iqtisadi, təhsil, mədəniyyət, səhiyyə, ekologiya və s. sahələrdə böyük layihələr həyata keçirilmişdir. Bu proqramlara əsasən milli azlıqlara mənsub olan şəxslərin kompakt yaşadığı bölgələrdə yüzlərlə yeni məktəblər, xəstəxana və diaqnostika mərkəzləri, idman-sağlamlıq kompleksləri, turizm-istirahət ocaqları, sənaye-istehsal müəssisələri və s. tikilib istifadəyə verilmiş, geniş abadlıq və bərpa işləri görülmüşdür.

Respublikada həyata keçirilən geniş miqyaslı səhiyyə islahatları çərçivəsində Azərbaycanda milli azlıqlara mənsub olan şəxslərin məskunlaşdığı şimal, şimal-qərb, cənub və mərkəzi aran regionlarında beynəlxalq standartlara cavab verən, ən müasir tibbi texnologiyalar və tibbi ləvazimatlarla tam təmin olunmuş tibbi diaqnostik mərkəzləri, ilkin səhiyyə xidmətləri və xəstəxana müəssisələri xalqın istifadəsinə verilmişdir. Bu regionlarda yaşayan ləzgi, saxur, avar, ingiloy, yəhudi, Axıska türkləri, tat, talış və digər milli mənsubiyyətli Azərbaycan vətəndaşları yüksək səviyyəli tibbi xidmətlərdən yararlanırlar. Son illər ərzində Səhiyyə Nazirliyi tərəfindən Respublikanın regionlarında və paytaxtda, milli azlıqlara mənsub olan şəxslərin də yaşadığı ərazilər daxil olmaqla, 300-dən artıq iri səhiyyə müəssisəsi ya yeni tikilmiş və ya onlarda əsaslı təmir-tikinti işləri aparılmışdır. Axıska türklərinin yaşadığı aran

regionunda Perinatal Mərkəz və digər səhiyyə müəssisələri əsaslı təmir edilərək sonra icmanın istismarına verilmişdir.

Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli Qanunu ilə təsdiq edilmiş "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" AŞ-nın Konvensiyasının 2-ci maddəsinə müvafiq olaraq Tərəflərin həmin Konvensiyanın müddəalarını yerinə yetirmələri, xüsusilə qurbanların hüquqlarının müdafiəsi üzrə tədbirlərin qəbul edilməsi cins, irq, rəng, dil, din, siyasi və ya digər baxışlar, milli və sosial mənsubiyyət, hər hansı milli azlıqlara mənsub olan şəxslərin aidiyyəti əmlakı doğum, seksual oriyentasiya, sağlamlıq durumu, əlillik və ya digər status kimi əlamətlərə görə ayrı-seçkilik olmadan təmin edilir.

Ölkə başçısının 2016-cı il 23 iyun tarixli Fərmanı ilə "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasına nəzarətin həyata keçirilməsi Qaydası" təsdiq edilmişdir. Həmin Qaydanın 1-ci hissəsinə əsasən bu Qayda yuxarıda adıçəkilən orqan, hüquqi şəxs və təşkilatlar, həmçinin "Vətəndaşların müraciətləri haqqında" Qanunun 5.8-ci maddəsi ilə müəyyən olunan şəxslər (ictimai əhəmiyyətli funksiyaları yerinə yetirən hüquqi şəxslər, habelə normativ hüquqi aktlar və ya müqavilə əsasında təhsil, səhiyyə, mədəniyyət və sosial sahələrdə xidmət göstərən özəl hüquqi şəxslər və fərdi sahibkarlar) tərəfindən vətəndaşların, o cümlədən digər fiziki və hüquqi şəxslərin təklif, ərizə və şikayətlərinin qəbulu, qeydə alınması, baxılması, cavablandırılması və arxivləşdirilməsi ilə bağlı kargüzarlığın aparılmasına nəzarətin həyata keçirilməsini tənzimləyir. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının müvafiq şöbəsi tərəfindən həyata keçirilən nəzarət zamanı bu fəaliyyətin qiymətləndirilməsi üçün müəyyən edilən hallardan biri qismində həmin Qaydanın 2.3-cü bəndinə əsasən irqinə, milliyyətinə, dininə, dilinə, cinsinə, mənşəyinə, əmlak vəziyyətinə, qulluq mövqeyinə, əqidəsinə, habelə siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətinə görə şəxsin müraciət etmək hüququnun məhdudlaşdırılması göstərilmişdir.

Ölkə başçısının 2017-ci il 21 iyun tarixli Fərmanı ilə "Dövlət qulluğu vəzifəsinin tutulması məqsədi ilə müsahibə keçirilməsi Qaydası" təsdiq edilmişdir. Həmin Qaydanın 1.3-cü bəndində müsahibə komissiyasının fəaliyyətini həyata keçirdiyi prinsiplər (qanunçuluq, obyektivlik, bərabərlik və s.) müəyyən olunmuşdur. Qaydanın 1.3.5-ci yarımbəndində bərabərlik prinsipi irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq bütün namizədlərin müsahibənin keçirilməsi ilə əlaqədar hüquqlarının bərabərliyinə təminat verilməsini nəzərdə tutulur.
Nazirlər Kabinetinin 2019-cu il 4 iyun tarixli Qərarı ilə təsdiq edilmiş "Səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan səhmdar cəmiyyətlərində korporativ idarəetmə Qaydaları və Standartları"nın 3.1-ci bəndində mülkiyyət formasından, malik olduqları səhmlərin həcmindən, vətəndaşlığından, dini, etnik, cinsi mənsubiyyətindən asılı olmayaraq, bütün səhmdarlara eyni yanaşmanın təmin edilməli olduğu göstərilir.

Nazirlər Kabinetinin 2021-ci il 26 aprel tarixli 111 və 112 nömrəli qərarları ilə "Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evlərinə qəbulu, qrup evlərini tərk etməsi, qrup evlərində xidmətin təşkili, həmçinin qrup evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar" və "Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinə qəbulu, həmin müəssisələri tərk etməsi, uşaq evlərində xidmətin təşkili, həmçinin uşaq evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar" təsdiq edilmişdir. Qaydaların 1.2-ci bəndlərində qrup evləri və uşaq evləri sosial xidmət müəssisələrində uşaqların irqinə, etnik mənsubiyyətinə, dininə, dilinə, cinsinə, mənşəyinə görə ayrı-seçkiliyə yol verilmədiyi müəyyən olunmuşdur.

2016-2021-ci illərdə Ədliyyə Akademiyasında hakimliyə namizədlər və Ədliyyə Nazirliyinin əməkdaşları üçün təşkil edilən tədris kurslarının proqramlarına "Ayrı-ayrı qruplara daxil olan insanların hüquqlarının müdafiəsinin xüsusiyyətləri", "Ayrı-seçkiliyin qadağan olunması" mövzularında mühazirələr daxil edilərək tədris edilmişdir. Ümumilikdə bu təlimlərdə 170 nəfəri hakimliyə namizəd olmaqla 708 nəfər dinləyici iştirak etmişdir.

Həmçinin 2016-2021-ci illərdə hakimlər, vəkillər və məhkəmə aparatı işçiləri üçün aşağıdakı təlimlər keçirilmişdir:

- 2016-cı ilin 26-27 may tarixlərində AŞ və Ədliyyə Akademiyasının birgə təşkilatçılığı ilə "Avropa İnsan Hüquqları Konvensiyasının 14-cü maddəsi (ayrı-seçkiliyin qadağan olunması)" mövzusunda təlim keçirilmişdir. Təlimdə 24 nəfər hakim iştirak etmişdir.
- 2017-ci ilin 4-5 may tarixlərində 23 nəfər hakimin iştirakı ilə AŞ və Ədliyyə Akademiyasının birgə təşkilatçılığı əsasında "Avropa İnsan Hüquqları Konvensiyası çərçivəsində mülkiyyət hüququ və ayrı-seçkiliyin qadağan edilməsi" mövzusunda təlim keçirilmişdir.
- 11-12 may 2017-ci il tarixdə Şəki şəhərində "Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsi (Ədalətli məhkəmə araşdırması hüququ) və 14-cü maddə (Ayrı-seçkiliyin qadağan olunması) mövzusunda iki günlük təlim keçirilmişdir. Təlimdə 17 nəfər vəkil və 18 nəfər məhkəmə aparatı işçiləri iştirak etmişdir.

Ümumilikdə bu təlimlərdə 47 nəfər hakim, 17 nəfər vəkil və 18 nəfər məhkəmə aparatı işçisi iştirak etmişdir.

Azərbaycanda milli azlıqlara mənsub olan şəxslərin da yaşadığı şəhər və rayonlarının davamlı və tarazlı inkişafının təmin olunması məqsədilə qəbul edilmiş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası, o cümlədən əhaliyə göstərilən dövlət xidmətlərinin keyfiyyətinin artırılması, infrastruktur təminatı, əhalinin rifah halının yaxşılaşdırılması ilə bağlı tədbirlərin effektivliyinin təmin edilməsi məqsədi ilə iqtisadi rayonların tərkibinə yenidən baxılmış və 2021-ci il 7 iyul tarixində "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərmanla Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılmışdır.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində regionlarda, o cümlədən milli azlıqlara mənsub olan şəxslərin kompakt yaşadığı Lənkəran, Quba-Xaçmaz və Şəki-Zaqatala iqtisadi rayonlarında kommunal xidmətlərin və sosial infrastruktur təminatının yüksəldilməsində, sahibkarlığın inkişafında, yeni müəssisələrin və iş yerlərinin açılmasında, nəticədə əhalinin məşğulluğunun artması və həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlər həyata keçirilmişdir. Sözügedən dövlət proqramları çərçivəsində 2017-ci ildən ötən dövr ərzində qeyd edilən iqtisadi rayonlar üzrə həyat şəraitinin daha da yaxşılaşdırılmasına və inkişafına xidmət edən aşağıdakı işlər həyata keçirilmişdir:

**Lənkəran-Astara iqtisadi rayonunda** 37 yaşayış məntəqəsi qazlaşdırılmış, 2551 km elektrik xətləri çəkilmiş və ya bərpa edilmiş, 746 km içməli su, 497 km kanalizasiya xətləri çəkilmiş, 669 km yerli və respublika əhəmiyyətli yollar tikilmiş və yenidən qurulmuşdur. Sosial infrastrukturun yaxşılaşdırılması istiqamətində də əhəmiyyətli işlər görülmüş, 94 məktəb, 12 bağça, 15 səhiyyə müəssisəsi və 2 mədəniyyət, 2 gənclər-idman obyekti tikilmiş və ya əsaslı təmir edilmişdir. Ümumilikdə görülmüş işlər nəticəsində 2017-2021-ci ilin I rübü ərzində Lənkəran-Astara iqtisadi rayonunda 1030 yeni müəssisə açılmış və 69619 iş yeri yaradılmışdır.

**Quba-Xaçmaz iqtisadi rayonunda** 54 yaşayış məntəqəsi qazlaşdırılmış, 3678 km elektrik xətləri çəkilmiş və ya bərpa edilmiş, 279 km içməli su, 836 km kanalizasiya xətləri çəkilmiş, 597 km yerli və respublika əhəmiyyətli yollar tikilmiş və yenidən qurulmuşdur. Sosial infrastrukturun yaxşılaşdırılması istiqamətində 75 məktəb, 11 bağça, 7 səhiyyə müəssisəsi, 9 mədəniyyət, 2 gənclər-idman obyekti tikilmiş və ya əsaslı təmir edilmişdir. Ümumilikdə görülmüş işlər nəticəsində 2017-2021-ci ilin I rübü ərzində Quba-Xaçmaz iqtisadi rayonunda 1549 yeni müəssisə açılmış və 20552 iş yeri yaradılmışdır.

**Şəki-Zaqatala iqtisadi rayonunda** 14 yaşayış məntəqəsi qazlaşdırılmış, 2946 km elektrik xətləri çəkilmiş və ya bərpa edilmiş, 241 km içməli su, 200 km kanalizasiya xətləri çəkilmiş, 625 km yerli və respublika əhəmiyyətli yollar tikilmiş və yenidən qurulmuşdur. Sosial infrastrukturun yaxşılaşdırılması istiqamətində də əhəmiyyətli işlər görülmüş, 52 məktəb, 17 bağça, 11 səhiyyə müəssisəsi, 13 mədəniyyət və 1 gənclər-idman obyekti tikilmiş və ya əsaslı təmir edilmişdir. Ümumilikdə görülmüş işlər nəticəsində 2017-2021-ci ilin I rübü ərzində Şəki-Zaqatala iqtisadi rayonunda 1009 yeni müəssisə açılmış və 25068 iş yeri yaradılmışdır.

2016-2020-ci illər və 2021-ci ilin 3 ayı ərzində İqtisadiyyat Nazirliyinin tabeliyində Sahibkarlığın İnkişafı Fondu tərəfindən:

**Lənkəran-Astara iqtisadi rayonu** üzrə 1005 sahibkarlıq subyektinə 26.1 milyon manat güzəştli kredit verilmiş və bu layihələr hesabına 1766 yeni iş yerinin yaradılması nəzərdə tutulmuşdur;

**Quba-Xaçmaz iqtisadi rayonu** üzrə 889 sahibkarlıq subyektinə 88.6 milyon manat güzəştli kredit verilmiş və bu layihələr hesabına 2747 yeni iş yerinin yaradılması nəzərdə tutulmuşdur;

**Şəki-Zaqatala iqtisadi rayonu** üzrə 608 sahibkarlıq subyektinə 32.2 milyon manat güzəştli kredit verilmiş və bu layihələr hesabına 1448 yeni iş yerinin yaradılması nəzərdə tutulmuşdur.

2020-ci ilin 7 fevral tarixində Quba-Xaçmaz iqtisadi rayonunun Xaçmaz şəhərində Kiçik və Orta Biznes (KOB) subyektlərinə göstərilən dövlət dəstəyi tədbirlərinin davamı olaraq, sahibkarlar üçün dövlət xidmətlərinin yaxşılaşdırılması, xidmətlərə vahid məkandan, rahat, maneəsiz və şəffaf çıxışın təmin olunması məqsədilə müasir innovasiyalara əsaslanan dövlət-biznes (“G2B”) və zəruri biznes-biznes (“B2B”) xidmətlərinin göstərildiyi vahid məkan olan Kiçik və Orta Biznes Evi (Xaçmaz KOB evi) fəaliyyətə başlamışdır. Xaçmaz KOB evində dövlət orqanları tərəfindən gömrük, vergi, əmlak, kommunal, qida təhlükəsizliyi, kənd təsərrüfatı, elektron ticarət, poçt, reklam, mənşə sertifikatı, lisenziya və icazələrin verilməsi kimi xidmətlər, həmçinin özəl qurumlar tərəfindən bank, lizinq, sığorta, broker, logistika, tərcümə, ştamp və möhür hazırlanması və digər xidmətlər təqdim olunur.

Eyni zamanda, Xaçmaz KOB evində yaradılmış KOB İnkişafı Mərkəzində Quba-Xaçmaz iqtisadi rayonu üzrə sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi, yeni biznes və məşğulluq imkanlarının yaradılması məqsədilə innovativ sahibkarlığa, startaplara dəstək, müxtəlif mövzularda təlim, məsləhət və texniki dəstək üzrə xidmətlər göstərilir.

Yeni açılmış iş yerlərinin və müəssisələrin sayını əks etdirən statistik məlumat Əlavə 2-də qeyd olunur.

**Maddə 5***: 1. Tərəflər, milli azlıqlara mənsub şəxslərə öz mədəniyyətlərini saxlamaq və inkişaf etdirmək, habelə öz xüsusiyyətlərinin əsas elementlərini: dinini, dilini, ənənələrini və mədəni irsini qoruyub saxlamaq imkanını təmin etmək üçün zəruri şərait yaratmağa yardım etməyi öz öhdələrinə götürürlər. 2. Tərəflər, öz ümumi inteqrasiya siyasətlərinin inkişafı üçün gördükləri tədbirlərə xələl gətirmədən, milli azlıqlara mənsub olan şəxslərin, öz iradələrinin əleyhinə olaraq assimilyasiya edilməsi məqsədini güdən hər cür siyasi və praktiki hərəkətdən çəkinir və bu şəxsləri belə assimilyasiyaya yönəldilən hər cür hərəkətlərdən qoruyurlar.*

Azərbaycanda müxtəlif mədəniyyətlərə, dinlərə və dini cərəyanlara mənsub olan insanların heç bir maneəyə rast gəlmədən qarşılıqlı anlaşma şəraitində azad yaşamaları, eləcə də azsaylı xalqların öz etnik-mədəni dəyərlərini qorumaları və cəmiyyət həyatının istənilən sahəsində fəal iştirak etmələri üçün hər zaman geniş imkanlar yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı” insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması, əhalinin müxtəlif qruplarının hüquqlarının müdafiəsi, insan hüquqları sahəsində

maarifləndirmə tədbirlərinin gücləndirilməsinə təkan vermiş və bu işin məqsədyönlü aparılmasına şərait yaratmışdır. Milli Fəaliyyət Proqramına uyğun olaraq etnik azlıqların mədəni irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi həyata keçirilir.

2017-ci il 10 okyabr tarixində Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması xüsusilə qeyd edilməlidir. Belə ki, Fond milli mənsubiyyətindən, dinindən asılı olmayaraq Azərbaycanda yaşayan bütün milli və dini azlıqların ortaq dəyərlərinin təbliğini həyata keçirir və ölkədə mövcud dini konfessiyaların dəstəklənməsini, mənəvi dəyərlərin qorunmasını və inkişafını, habelə bu sahəyə dövlət dəstəyinin gücləndirilməsini təmin edir.

*a) Azərbaycan hökuməti tərəfindən milli azlıqlara məxsus dini təsisatların fəaliyyətinin dəstəklənməsi məqsədilə maliyyə vəsaitinin ayrılması*

Azərbaycan Respublikasının Prezidenti tərəfindən dini qurumlara maliyyə yardımı ənənəsi hər il davam etdirilir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə 2017-2021-ci illərdə ölkədəki mövcud dini konfessiyaların dəstəklənməsi və fəaliyyətlərinin ahəngdarlığının təmin edilməsi məqsədi ilə dəfələrlə dini qurumlara maliyyə yardımı göstərilmişdir:

- Prezidentin müvafiq Sərəncamlarına əsasən Azərbaycan Respublikasının 2017-ci və 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna hər il 250 (iki yüz əlli) min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına hər il 250 (iki yüz əlli) min manat, Avropa yəhudilərinin Bakı dini icmasına hər il 100 (yüz) min manat, Azərbaycan Respublikasında Katolik kilsəsinin Apostol Prefekturası dini qurumuna hər il 100 (yüz) min manat və Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasına hər il 100 (yüz) min manat ayrılmışdır.

- Prezidentin müvafiq Sərəncamına əsasən Azərbaycan Respublikasının 2019-cu, 2020-ci və 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna hər il 350 (üç yüz əlli) min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına hər il 350 (üç yüz əlli) min manat, Avropa yəhudilərinin Bakı dini icmasına hər il 150 (yüz əlli) min manat, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna hər il 150 (yüz əlli) min manat və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasına hər il 150 (yüz əlli) min manat ayrılmışdır.

- Eyni zamanda digər qeyri-islam dini icmalarına, xüsusilə Bakı şəhəri "Azərbaycan Bibliya Cəmiyyəti" xristian dini icması, "Vineyard Azərbaycan" xristian dini icması, Krişna Şüuru dini icması, Bakı şəhəri Yevangelist Məshi Baptistlərinin "Aqape" dini icması, Bakı şəhəri "Alov" xristian dini icması, Bakı şəhəri "Molokan Ruhani-xristian" dini icması, "Həyat Sözü" xristian dini icması, Xilaskar Yevangelik-Lüteranların Bakı dini icması, Azərbaycan

Respublikası Yeni Həyat xristian İncil dini icması, Bakı şəhəri Nərimanov rayonu “Yeddinci Günün Adventistləri” dini icması, Bakı şəhəri “Şərqdə Ulduz” xristian dini icması, Bakı şəhəri “Yevangelist Xristian Baptistlərin kilsəsi” dini icması, Bakı şəhəri Yehovanın Şahidləri dini icması, Bakı şəhəri Bəhai dini icması, Bakı şəhəri “Yeni Apostol” xristian dini icması, Bakı şəhəri Nəsimi rayonu “Həyatverici Lütf” xristian dini icması, Sumqayıt şəhəri “Molokan Ruhani-Xristian” dini icması, Sumqayıt şəhəri Bəhai dini icması, “Həyat Sözü-2” Sumqayıt xristian dini icması, Sumqayıt şəhəri “Alov” xristian dini icması, Qax rayonu Əlibəyli kəndi “Müqəddəs Nino” kilsəsi Gürcü Pravoslav xristian dini icması, Qax rayonu Qaxingiloy kəndi “Müqəddəs Giorgi” kilsəsi Gürcü Pravoslav xristian dini icması, İsmayıllı rayonu İvanovka kəndi “Molokan-Ruhani-xristian” dini icması, “Gəncə şəhəri Yeddinci Günün Adventistləri” xristian dini icması, Qobustan rayonu Xilmilli kəndi “Molokan Ruhani-xristian” dini icmasına maddi dəstək göstərilməsi üçün DQİDK-nın tabeliyində fəaliyyət göstərən Mənəvi Dəyərlərin Təbliği Fonduna 2019-2021-ci illərdə hər il 100 (yüz) min manat ayrılmışdır.

*b) Milli azlıqlara məxsus ibadət evlərinin tikilməsi və təmir-bərpası*

Ötən dövr ərzində ölkədə təkcə məscid və ziyarətgahlar deyil, kilsə və sinaqoqlar, eləcə də digər ibadət evlərinin tikilməsi, təmir-bərpa olunması Azərbaycan hökumətinin diqqətində olmuşdur. Azərbaycanda Alban-Udi Xristian dini icmasına məxsus tarixi-dini abidələrin, kilsələrin təmiri və bərpası məqsədilə bir sıra tədbirlər həyata keçirilməkdədir. Udilərin kompakt halda yaşadığı Qəbələ rayonunun Nic qəsəbəsində yerləşən Müqəddəs Məryəm Ana Alban kilsəsinin Heydər Əliyev Fondu tərəfindən əsaslı şəkildə bərpa edilməsi üçün 2019-cu ildən işlərə başlanılmış və 2020-ci il 7 noyabr tarixində kilsəsinin bərpadan sonra açılışı olmuşdur.

Eyni zamanda Azərbaycanın dünyaya tolerantlıq nümunəsi olaraq daha geniş tanıdılmasının vacibliyini, eləcə də ayrı-ayrı ölkələrdəki müxtəlif multikultural modellərə xas fəlsəfi, sosial, siyasi və digər aspektlərin Azərbaycan reallığında təhlili və təşviqinin əhəmiyyətini nəzərə alaraq Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) ölkə Prezidentinin 2019-cu il 4 fevral tarixli Sərəncamı ilə Azərbaycanda multikulturalizm ənənələrinin daha geniş təbliğ olunmasını təmin etmək məqsədilə vəsait ayrılmışdır.

Hesabat dövrü ərzində BBMM Azərbaycanın multikulturalizm modeli, azsaylı xalqlar və etnik azlıqlarla əlaqəli çoxlu tədbir keçirib. Bunlardan, «Holokost və Xocalı - müasirlərin gözü ilə” mövzusunda dəyirmi masa (Azərbaycandakı yəhudi icmaları ilə birlikdə), V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində “Müasir dünyada etnik-mədəni müxtəlifliyin artması və onun tənzimlənməsində çoxmədəniyyətlilik siyasətinin əhəmiyyəti” mövzusunda beynəlxalq dəyirmi masa, Azərbaycan İstiqlal Muzeyində “Azərbaycan: Tolerantlıq ünvanı” adlı sərgi, Almaniyanın Pirna və Drezden Universitetlərində “Cənubi Qafqazda almanların məskunlaşması” mövzusunda mühazirələr, Azərbaycandakı Yevangelist Protestant Dini İcma rəhbərlərinin və etnik icmaların ABŞ-ın Beynəlxalq Dini Azadlıq üzrə Komissarı, Xristian Liderlərin Təriqətlərarası Konqresinin Prezidenti Conni Murla görüşü misal çəkmək olar. COVİD-19 pandemiyası ilə mübarizə çərçivəsində Azərbaycanda fəaliyyət göstərən etnik icmaların yaşlı üzvlərinə maddi yardım aksiyası, «Qafqaz Albaniyası irsi” mövzusunda

videokonfrans, ATƏT-ə 2021-ci ildə sədrlik edən İsveç hökumətinin təşkilatçılığı və qurumun Demokratik Təsisatlar və İnsan Hüquqları Ofisinin dəstəyi ilə regionun antisemitizmlə mübarizə mövzusunda expert iclası, YUNESKO-nun təşkilatçılığı ilə Yerli Dillərin Beynəlxalq Dekadası (2022-2032 illər) üçün Qlobal Fəaliyyət Planının hazırlanması məqsədilə Şərqi Avropa və Mərkəzi Asiya üzrə Regional Məsləhətləşmələr mövzusunda onlayn konfrans və digər tədbirlər təşkil olunmuş, “Nifrətin təbliği, sosial media və azlıqlar” mövzusunda Avropa regional forumunda iştirak edilmişdir.

BBMM Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi ilə birlikdə ölkədəki etnik azlıqların və azsaylı xalqların tarix və mədəniyyətinin öyrənilməsi, ana dillərinin və mədəniyyətlərinin təbliği üzrə ixtisaslaşdırılmış qeyri-hökumət təşkilatlarının layihələrinin (mədəni-kütləvi tədbirlər, tarixi-etnoqrafik araşdırmalar, sənədli filmlərin çəkilişi, kitabların nəşri və s.) həyata keçirilməsində fəal iştirak edir. İndiyədək Mərkəz tərəfindən onlarla layihəyə dəstək verilib. BBMM eyni zamanda, həmin layihələrin icrasında peşəkar mütəxəssislərin cəlb edilməsi ilə yanaşı, onların nəticələrinin ekspertizasını da həyata keçirir. Bundan başqa, 2020-2021-ci illər ərzində BBMM-in maddi dəstəyi ilə Azərbaycanda yaşayan xalqlar haqqında dörd sənədli film çəkilmişdir, daha 6 sənədli filmin çəkilişi davam edir. Bundan başqa, hesabat dövründə yerli və xarici kütləvi informasiya vasitələrində Azərbaycan Respublikasının multikulturalizm modeli, ölkədə yaşayan xalqların mədəni hüquqlarının qorunmasına və inkişaf etdirilməsinə dair yüzlərlə məqalə dərc olunmuşdur.

Azərbaycanda tarixən mövcud olan tolerantlıq ənənələrinin, etnik-dini rəngarəngliyin qorunub saxlanması və inkişaf etdirilməsi, eləcə də ölkədə fəaliyyət göstərən dini konfessiyalar arasında qarşılıqlı anlaşma və dialoq mühitinin möhkəmləndirilməsi Azərbaycan hökumətinin din siyasətinin prioritet istiqamətlərindən biridir. Ötən dövr ərzində müxtəlif konfessiyalara mənsub dini qurumlar, eləcə də milli azlıqlara mənsub olan şəxslərə məxsus dini təsisatlar arasında dözümlülük ruhu və mədəniyyətlərarası dialoqun həvəsləndirilməsi və qarşılıqlı hörmət, anlaşma və əməkdaşlığın təşviq olunması məqsədilə müxtəlif tədbirlər həyata keçirilmişdir.

Ağstafa rayonunun Poylu, Böyük Kəsik, Soyuqbulaq kəndlərində, Qazax rayonunun Aşağı Salahlı və Orta Salahlı kəndlərində Axıska türk ailələri məskunlaşmışdır. Dövr ərzində həmin kəndlərdə yaşayan Axıska türkləri üçün səyyar kitabxana xidməti təşkil edilmişdir. İsmayıllı rayonunun Qalacıq ,Qurbanəfəndi, Topçu, Çəmənli kəndlərində ləzgilər yaşayırlar. Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin tabeliyində olan Qalacıq kənd klubunda ləzgi xalqının adət-ənənələrinin təbliğinə xidmət edən xalçaçılıq dərnəyi, Qurbanəfəndi klubunda isə ləzgi folklor qrupu fəaliyyət göstərir. Şamaxı rayonu ərazisində də müxtəlif azsaylı xalqların nümayəndələri yaşayır. Azsaylı xalqların ən çox məskunlaşdığı ərazilər Şamaxı şəhəri, Mədrəsə qəsəbəsi, Çuxuryurd, Nağaraxana, Qızmeydan, Birinci və İkinci Cabanı kəndləridir. Şamaxı rayonu ərazisində azsaylı xalqlara mənsub qədim dini abidələr mövcuddur. 2019–cu ildə keçirilən I Beynəlxalq Üzüm Şərab Festivalında molokanların folklor qrupları iştirak etmiş, mətbəx mədəniyyəti nümayiş olunmuşdur. Mədəniyyət Nazirliyinin layihəsi əsasında Şamaxıda keçirilən “Bölgələrdən bölgələrə” yaradıcılıq festivalında rus folklor qrupunun çıxışı təşkil olunmuş, əl işləri nümayiş etdirilmişdir. 2019-cu ildə Axıska türklərinin Saatlı rayonu ərazisində

daha kompakt yaşadığı Nəsimikənd kənd Folklor evi filialının "Adıgün" Türk Xalq Folklor kollektivi Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin dövlət reyestrinə daxil edilmişdir. 2019-cu ilin 3-7 iyul tarixində ölkəmizdə ilk dəfə Respublika Sənətkarlıq Festivalı keçirilmişdir. Festival YUNESKO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində təşkil olunmuşdur. Festivalda Respublikamızın paytaxt və regionlardan olan sənətkarların iştirakının təmin olunması məqsədilə sənətkarlığın müxtəlif istiqamətləri ilə peşəkar səviyyədə məşğul olan ustalarla yanaşı milli azlıqların nümayəndələri də dəvət edilmişdir.

**Maddə 6***: 1. Tərəflər, mədəniyyətlər arasında dözümlülüyü və dialoqu təşviq edir habelə öz ərazilərində yaşayan bütün şəxslər arasında, onların hansı etnik mədəni dil və din qrupuna mənsub olmalarından asılı olmayaraq, xüsusilə də təhsil, mədəniyyət və informasiya vasitələri sahələrində qarşılıqlı hörmət, anlaşma və əməkdaşlığa yardım etmək üçün təsirli tədbirlər görürlər. 2. Tərəflər etnik, mədəniyyət, dil və din mənsubiyyəti səbəbindən ayrı-seçkilik, düşmənçilik və zorakılıq təhdidləri və aktlarının qurbanı ola biləcək şəxsləri qorumaq üçün bütün lazımi tədbirləri görməyi öz öhdələrinə götürürlər.*

2008-ci ilin dekabrında Bakıda AŞ-a üzv dövlətlərin mədəniyyət nazirlərinin “Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır” mövzusunda keçirilmiş konfransında İslam və Qərb sivilizasiyaları, eləcə də xalqlar və mədəniyyətlər arasında dialoq və əməkdaşlığın inkişafı məqsədilə ölkə Prezidenti tərəfindən “Bakı Prosesi” təşəbbüsü irəli sürülmüşdür. 2017-ci il 17 noyabr tarixində “Bakı Prosesi”nin 10-cu ildönümünün qeyd edilməsi haqqında” ölkə Prezidentinin Sərəncamı qəbul edilmişdir. Həmçinin iki ildən bir Azərbaycanda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu və Bakı Beynəlxalq Humanitar Forumu keçirilir.

“Gənclər siyasəti haqqında” Qanunun 5.9-cu maddəsinə və həmin Qanunun tətbiqi barədə ölkə Prezidentinin 2002-ci il 6 may tarixli Fərmanına 2.9-cu bəndinə uyğun olaraq Gənclər və İdman Nazirliyi, Müdafiə Nazirliyi, Mədəniyyət Nazirliyi, Təhsil Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və yerli icra hakimiyyəti orqanları, kütləvi informasiya vasitələri, televiziya və radio yayımçıları, sosial media vasitəsilə gənclərdə vətənpərvərlik, milli və ümumbəşəri dəyərlərə hörmət hisslərinin, dövlətçilik prinsiplərinə sadiqliyin gücləndirilməsi, tolerantlığın və multikulturalizmin təbliği məqsədi ilə dövlət rəmzləri, ölkə və dünya tarixi, mədəniyyəti, tarixi şəxsiyyətlər, Milli qəhrəmanlar haqqında elmi-populyar verilişlər hazırlayırlar və maarifləndirici layihə və proqramlar həyata keçirirlər.

Azərbaycan Respublikasının 2020-ci il 17 mart tarixli Qanunu ilə “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Qanunun 13-2-ci maddəsində dəyişiklik edilərək internet informasiya ehtiyatı ilə yanaşı informasiya-telekommunikasiya şəbəkəsində də zorakılığın və dini ekstremizmin təbliğinə dair məlumatların, milli, irqi və ya dini nifrət və düşmənçiliyin salınmasına yönələn açıq çağırışların yerləşdirilməsinə yol verilmədiyi nəzərdə tutulmuşdur. Bununla əlaqədar həmin tarixdə İnzibati Xətalar Məcəlləsində edilmiş dəyişikliklə həmçinin informasiya-telekommunikasiya şəbəkəsində yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi, habelə belə informasiyanın yerləşdirilməsinin qarşısının alınmamasına görə məsuliyyət müəyyən edilmişdir.

Ölkə Prezidentinin 2016-cı il 20 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı”na əsasən aidiyyəti dövlət orqanlarına yerli xalqların və milli azlıqlara mənsub olan şəxslərin adət-ənənələrinin qorunmasına dair müxtəlif elektron informasiya resurslarının yaradılması tapşırığı verilmişdir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi hər zaman ölkədə yaşayan milli-dini azlıqlarla qarşılıqlı anlaşma şəraitində fəaliyyət göstərir. Dövlət Komitəsinin təşkilatçılığı ilə insan hüquqlarının qorunması məqsədilə müvafiq dövr (2016-cı il oktyabrından-2021-ci ilin oktyabrınadək) ərzində dini icmalarda “İnsan hüquqları aylığı” (18 maydan -18 iyunadək), “Sülh aylığı” (21 avqustdan - 21 sentyabradək) “Uşaq hüquqları aylığı” (20 oktyabrdan - 20 noyabradək) çərçivələrində maarifləndirici seminarlar keçirilmişdir.

16 Noyabr Beynəlxalq Tolerantlıq Günü çərçivəsində sülh və insan hüquqlarının təbliği, din sahəsində dözümlülüyün, dinlərarası dialoqun gücləndirilməsi, Azərbaycanda mövcud olan tolerantlıq ənənələrinin möhkəmləndirilməsi məqsədilə “Tolerantlıq - Azərbaycan xalqının milli zənginliyi kimi”, “Beynəlxalq Tolerantlıq Günü”, “Tolerantlıq - dinlər və millətlərarası dialoqun təminatçısı”, “Azərbaycan tolerantlıq ölkəsidir”, “Tolerantlıq diyarı Azərbaycan”, "Tolerantlıq Azərbaycanda həyat tərzidir", “Tolerantlıq Azərbaycan milli kimliyinin ayrılmaz hissəsi kimi” mövzularda Respublikanın müxtəlif şəhər və rayonlarında müvafiq tədbirlər keçirilmişdir. Tədbirlərdə dini və milli azlıqlara mənsub olan şəxslərin, bu sahədə fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının, eləcə də dini qurumların nümayəndələrinin fəal iştirakı təmin olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti “2016-cı ilin Azərbaycan Respublikasında “Multikulturalizm ili” elan edilməsi barədə Sərəncam imzalamış, eyni zamanda “2016-cı ilin Azərbaycan Respublikasında “Multikulturalizm ili” elan edilməsinə dair Tədbirlər Planı”nı təsdiqləmişdir. Həmin “Tədbirlər Planı”na uyğun olaraq, dini radikalizm və ekstremizmlə mübarizə, milli-mənəvi dəyərlərimizin təbliği, tolerant və multikultural ənənələrimizin təşviqi, həmçinin radikalizmə və fanatizmə alternativ kimi multikulturalizmin təbliği məqsədilə təkcə 2016-cı ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən həyata keçirilmiş tədbirlərin sayı 150-dən artıq olmuşdur.

28-30 iyun 2016-cı ildə Bakı şəhərində “Azərbaycan – doğma diyar” devizi ilə milli azlıqlara mənsub olan şəxslərin V Respublika Festivalı, eyni zamanda milli azlıqlara mənsub olan şəxslərin ölkənin 14 rayonunu təmsil edən 30 - dan artıq musiqi - folklor kollektivinin iştirakı ilə qala-konsert keçirilmişdir. Həmçinin, tədbir çərçivəsində iyunun 30-da Xalça Muzeyində milli azlıqlara mənsub olan şəxslərin həyat və məişətini, etnoqrafiyasını əks etdirən “Vahid ailədə” adlı foto-sərgi nümayiş etdirilmiş, “Azərbaycanda yaşayan milli azlıqlara mənsub olan şəxslərin mahnı və rəqs folkloru nümunələri” diskinin və fotokataloqunun Azərbaycan, ingilis, rus, fransız və alman dillərində təqdimatı keçirilmiş, “Multikulturalizmin Azərbaycan modeli” mövzusunda “dəyirmi masa” təşkil edilmişdir.

2016-cı ilin 10 oktyabr tarixində ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu ilə birgə təşkilatçılıq çərçivəsində "Qeyri ayrı-seçkilik və tolerantlığın təşviqinə dair dinlərarası dialoq" mövzusunda ikigünlük seminar təşkil olunmuşdur.

2016-cı ilin 8-10 noyabr tarixlərində Madrid şəhərində “Dinlərarası dialoqun sülhə və multikultural həyata töhfəsi” mövzusunda konfrans keçirilmişdir.

2017-ci il noyabrın 7-də BMT-nin Cenevrədəki bölməsində “Mədəniyyətlərarası dialoq vasitəsilə münaqişələrin qarşısının alınması: Azərbaycan modeli” adlı beynəlxalq konfrans baş tutmuşdur.

2019-cu ilin sentyabr-noyabr ayları ərzində Ənənəvi Respublika Folklor Festivalı təşkil olunmuşdur. Festivalda ölkəmizdə yaşayan azsaylı xalqların nümayəndələrinin iştirakı təmin edilmişdir. 2021-ci ilin may ayında Şuşa şəhərində keçirilmiş “Xarı Bülbül” festivalında milli azlıqların nümayəndələrindən ibarət kollektivlərin iştirakı təmin olunmuşdur.

Eyni zamanda Madrid şəhərində 2017-ci il noyabrın 6-da Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, İspaniya Ədliyyə Nazirliyinin, Azərbaycanın İspaniya Krallığındakı Səfirliyinin təşkilatçılığı və Evsen Fondunun dəstəyi ilə “Dinlərarası dialoqun sülhə və multikultural həyata töhfəsi” adlı 2-ci beynəlxalq konfrans keçirilmişdir.

2017-ci il aprelin 27-də Helsinkidə “Multikulturalizm və dinlərarası tolerantlıq: Azərbaycanın təcrübəsi və onun Avropa üçün əhəmiyyəti” mövzusunda konfrans keçirilmişdir.

2019-cu il martın 5-də Bakıda "Dinlərarası və sivilizasiyalararası dialoqdan əməkdaşlığa doğru" mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Konfransda tanınmış dövlət, din və elm xadimləri, dini konfessiya rəhbərləri, hökumətin və parlamentin üzvləri, eləcə də ictimaiyyət nümayəndələri iştirak etmişlər.

2019-ci il aprelin 25-26-da Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Avropa İttifaqının Bakı Ofisi və Azərbaycan Diplomatiya Akademiyasının birgə təşkilatçılığı ilə “Dinlərarası dialoq və radikalizmlə mübarizə” mövzusunda ikinci beynəlxalq konfrans keçirilmişdir.

2019-cu ilin noyabr ayında Bakıda Dünya dini liderlərinin II sammiti keçirilmişdir. Tədbirdə dünyanın 5 qitəsindən 70-dən artıq dövlətin, 25 ənənəvi din və dini təriqətin lider və təmsilçiləri, həmçinin 10-dək nüfuzlu beynəlxalq təşkilatın 500-ə yaxın yüksək səviyyəli nümayəndəsi və dini rəhbərləri iştirak etmişlər.

2020-ci ilin 8-12 mart tarixlərində ABŞ-ın Yuta ştatında yerləşən Stirlinq Fondunun təşkilatçılığı ilə “Azərbaycan multikulturalizmi modeli və dinlərarası dialoq” mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

Ədliyyə Nazirliyinin mətbu nəşrlərində insan hüquq və azadlıqlarının müdafiəsinə, o cümlədən ayrı-seçkiliyin qadağan edilməsi, sülh və dözümsüzlüyün təbliğinə yönəlmiş yazılar dərc edilir, regional ədliyyə idarələrinin imkanlarından istifadə etməklə bölgələrdə vətəndaşların, o cümlədən milli azlıqlara mənsub olan şəxslərin nümayəndələrinin hüquqi maarifləndirməsi üzrə mütəmadi tədbirlər həyata keçirilir, nazirliyin internet səhifəsində və sosial şəbəkələrində aidiyyəti məlumatlar yerləşdirilir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 283-cü *(Milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması)* maddəsinə əsasən milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə, o cümlədən kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə cinayət məsuliyyətinə səbəb olur.

Eyni zamanda Cinayət Məcəlləsinin 103 (Soyqırım), 109 (Təqib), 154 (Bərabərlik hüququnu pozma), 167 (Dini ayinləri icra etməyə mane olma), 168-ci (Dini ayinlərin icrası adı altında vətəndaşların hüquqlarına qəsd etmə) maddələrində milli azlıqlara mənsub olan şəxslərin hüquqlarının qorunmasına xidmət edən müddəalar əks olunmuşdur.

2016-2020-ci illər ərzində Cinayət Məcəlləsinin 168-ci (Dini ayinlərin icrası adı altında vətəndaşların hüquqlarına qəsd etmə) maddəsinə əsasən 1 şəxs, 283-cü (Milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması) maddəsinə əsasən 1 şəxs məhkum olunmuşdur. Cinayət Məcəlləsinin 120.2.12-ci maddəsində isə milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə adam öldürməyə görə ağırlaşdırıcı hal qismində daha ağır cəza nəzərdə tutulur.

Bununla yanaşı qeyd olunmalıdır ki, 7 dekabr 2021-ci il tarixində Beynəlxalq Ədalət Məhkəməsi "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiyaya uyğun olaraq həm Azərbaycan, həm də Ermənistanın müraciəti əsasında onların bir-birinə qarşı başlatdığı məhkəmə prosesləri çərçivəsində iki qərar çıxarmışdır.

Məhkəmə Ermənistanın xüsusi tədbir görülməsi ilə bağlı müraciətlərinin əksəriyyətini rədd etmişdir.

Eyni zamanda, Azərbaycanın müvəqqəti tədbirlər üçün müraciəti ilə əlaqədar olaraq, Məhkəmə Ermənistandan Azərbaycan milliyyəti və ya etnik mənsubiyyətindən olan şəxslərə qarşı, o cümlədən də Ermənistan ərazisindəki təşkilatlar və şəxslər tərəfindən irqi düşmənçiliyin qızışdırılması və təbliğinin qarşısını almaq üçün bütün lazımi tədbirləri görməyi tələb etmişdir.

**Maddə 7***: Tərəflər, milli azlığa mənsub olan hər bir şəxsin dinc yığıncaqlar keçirmək azadlığı və assosiasiyalar azadlığı, öz fikirlərini ifadə etmək azadlığı və düşüncə, vicdan və din azadlığı ilə bağlı hüquqlarına hörmət olunmasını təmin edirlər.*

Azərbaycan Respublikası Prezidentinin 13 dekabr 2007-ci il tarixli Fərmanı ilə yaradılan Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yerinə 19 aprel 2021-ci ildə Azərbaycan Respublikasının Qeyr-Hökumət

Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi yaradılmışdır. Ölkədə fəaliyyət göstərən QHT-lər, o cümlədən Azərbaycanda yaşayan xalqların etnik-mədəni təşkilatları həmin Agentliyə müvafiq qrant layihələri ilə müraciət edərək maliyyə yardımları almaq imkanına malikdirlər.

Azərbaycan Respublikası qanunvericiliyinə əsasən qeyri-hökumət təşkilatları dövlət qeydiyyatına alınmadan da sərbəst fəaliyyət göstərə bilərlər. Birləşmək azadlığı kontekstində milli azlıqların birləşmək hüququnu tənzimləyən hər hansı ayrı qanunvericilik mövcud deyildir. Bütün qeyri-kommersiya hüquqi şəxslərinə münasibətdə qeydiyyat proseduru eynidir. Qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün əlverişli şəraitin yaradılması daim diqqət mərkəzindədir. Təqdim olunmuş sənədlər mövcud qanunvericiliyə zidd olduğu təqdirdə “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Qanunun 11.3.1-ci maddəsinə əsasən imtinaya səbəb olmuş müddəalara dair yazılı izahlar verilir. İmtina üçün əsaslar aradan qaldırıldıqdan sonra sənədlər dövlət qeydiyyatı üçün yenidən təqdim edilə bilər.

Vətəndaş cəmiyyətinin dəstəklənməsi üzrə həyata keçirilən davamlı tədbirlər çərçivəsində QHT-lər üçün yaradılan əlverişli şəraitin nəticəsidir ki, ölkəmizdə QHT-lərin sayı ilbəil artır və fəaliyyəti genişlənir.Qeyri-kommersiya qurumlarının dövlət reyestri məlumatlarına əsasən dövlət qeydiyyatına alınmış qeyri-hökumət təşkilatlarından 54-ü etnik azlıqlarla bağlı qurumlardır. Həmçinin insan hüquqlarının müdafiəsi, hüquqi maarifləndirmə və digər sahələrdə fəaliyyət göstərən qeyri-hökumət təşkilatları da nizamnamələrinə uyğun olaraq milli azlıqlara mənsub olan şəxslərin hüquqlarının təşviqi ilə məşğul ola bilərlər.

QHT-lərin fəaliyyətini tənzimləyən qanunvericiliyə edilmiş dəyişikliklər ilk növbədə şəffaflığın artırılması, maliyyələşdirmə, hesabatlılıq və milli donorluluq institutunun möhkəmləndirilməsinə yönəldilmişdir. QHT-lərin fəaliyyətini tənzimləyən qanunvericilikdəki boşluqların aradan qaldırılması, hüquqi şəxslərin dövlət qeydiyyatının və reyestrinin aparılması qaydalarının təkmilləşdirilməsi məqsədi ilə 17 dekabr 2013-cü il tarixində “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” və “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Qanunlarda dəyişikliklər edilmişdir. Bu qanunların qəbulu prosesində beynəlxalq standartlar, Avropa dövlətlərinin təcrübəsi, eləcə də 2011-ci il tarixli Avropa Şurasının Venesiya Komissiyasının rəyləri və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin müvafiq qərarları nəzərə alınmışdır. Sözügedən dəyişikliklər çərçivəsində QHT-lərin ləğvi ilə bağlı qanunvericiliyin müddəalarına yenidən baxılmış və bu instituta alternativ olaraq inzibati məsuliyyət və fəaliyyətin dayandırılması kimi tədbirlərin hüquqi əsasları müəyyən edilmişdir. Xüsusi vurğulanmalıdır ki, son 10 ildə hər hansı QHT-nin ləğvi ilə bağlı aidiyyəti səlahiyyətli orqan tərəfindən məhkəmələrə müraciət edilməmişdir.

“Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” və “Qrant haqqında” qanunlara 17 oktyabr 2014-cü il tarixində edilmiş növbəti dəyişikliklər QHT-lərin fəaliyyətinin məhdudlaşdırılması kimi qiymətləndirilə bilməz. Belə ki, bu sahədə statistik təhlillər QHT-lərin maliyyələşməsində davamlı və əhəmiyyətli artım dinamikasını nümayiş etdirməklə bu növ təşkilatların fəaliyyətinə dövlət tərəfindən göstərilən dəstəyi bir daha təsdiq etmiş olur.

Yerli qeyri-hökumət təşkilatının fəaliyyət göstərməsi üçün onun dövlət qeydiyyatına alınması tələb olunmur. Qanun QHT-lərin fəaliyyətinin məqsədəmüvafiq olmaması səbəbindən hüquqi şəxs qismində qeydiyyatından imtina edilməsini qadağan edir.

Eyni zamanda, birləşmək azadlığı kontekstində milli azlıqlara mənsub olan şəxslərin birləşmək hüququnu tənzimləyən hər hansı ayrı qanunvericilik mövcud deyildir. Hüquqi şəxs statusu almaq istəyən QHT-nin qanunvericiliklə müəyyən edilmiş qaydada qeydiyyat orqanına müraciət olunması, habelə zəruri sənədlərin verilməsi prosedurları kütləvi informasiya vasitələri, habelə qeydiyyat qurumunun rəsmi internet səhifəsi vasitəsi ilə bu prosedurlar və tələb olunan sənədlər, habelə onların nümunəvi formaları barədə əhalinin məlumatlandırılması təmin edilir.

21 oktyabr 2016-cı il tarixində Azərbaycan Respublikasının Prezidenti tərəfindən “Xarici donorlar tərəfindən Azərbaycan Respublikasının ərazisində qrantların verilməsi prosedurunda “bir pəncərə” prinsipinin tətbiqi haqqında” Fərman imzalanmışdır. 1 yanvar 2017-ci il tarixindən xarici donorlar tərəfindən Azərbaycan Respublikasının ərazisində qrantların verilməsi prosedurunda bu prinsipi tətbiq edilir. “Bir pəncərə” prinsipinin tətbiqinin mühüm nəticəsi müvafiq dövlət orqanına təqdim edilməsi üçün tələb olunan sənədlərin sayının, eləcə də qrant vermək hüququnun alınmasına dair məsələyə baxılması müddətlərinin 2 dəfə azalması olmuşdur.

Avropa Şurası Venesiya Komissiyası tərəfindən qəbul edilmiş “Qeyri-hökumət təşkilatları haqqında Azərbaycan Respublikası qanunvericiliyinin insan hüquqları normaları ilə uyğunluğu haqqında” Rəydə öz əksini tapan tövsiyələr nəzərə alınaraq QHT-lərin qeydiyyat prosedurlarının sadələşdirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 20 noyabr 2013-cü il tarixli Fərmanı ilə QHT-lərə elektron xidmətlərin göstərilməsi üçün “Fərdi elektron pəncərə” informasiya sistemi yaradılmışdır. Ölkə başçısının 27 yanvar 2021-ci il tarixli Fərmanı ilə sözügedən informasiya sistemi vasitəsi ilə QHT-lərə təqdim olunan elektron xidmətlərin dairəsi genişləndirilmiş, onların sırasına qeydiyyat, habelə maliyyələşdirilməsinə ayrılan vəsaitlərin reyestrə daxil edilməsi kimi yeni xidmətlər əlavə olunmuşdur.

Həmçinin QHT-lərin dövlət qeydiyyatı ilə bağlı Avropa İnsan Hüquqları Məhkəməsində baxılan işlərə təşkilat təsisçilərinin müraciətlərinə əsasən xitam verilmişdir. Bu təşkilatlar sırasında olan “Cənub Regional İnkişaf və Gender Problemləri” ictimai birliyi də 2019-cu ildə qeydiyyata alınmışdır.

Avropa Şurası ilə əməkdaşlıq çərçivəsində Azərbaycanda “Vətəndaş Cəmiyyəti Dialoqu” layihəsi həyata keçirilmişdir. Layihənin əsas istiqamətləri vətəndaş cəmiyyəti sahəsində qanunvericiliyin inkişafı və onun Avropa standartlarına uyğun həyata keçirilməsi olmuşdur. Ölkə başçısının 27 aprel 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı”na uyğun olaraq vətəndaş cəmiyyəti institutları ilə əlaqələri daha da dərinləşdirmək, qeyri-hökumət təşkilatlarının layihə və təşəbbüslərinə dəstəyin artırılmasını təmin etmək və vətəndaş cəmiyyəti institutları ilə ünsiyyətin yeni formatını təsbit etmək məqsədilə yaradılmış “Açıq hökumət tərəfdaşlığı

Hökumət–Vətəndaş Cəmiyyəti Dialoqu Platforması” uğurla fəaliyyət göstərmiş, onun vasitəsilə ictimai həyatın müxtəlif sahələrini əhatə edən geniş spektrli mövzular müzakirə edilmiş və mühüm qərarlar qəbul edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı” bu platformada keçirilən müzakirələrin növbəti nəticəsidir. Həmin Planın icrası çərçivəsində qeyri-kommersiya qurumlarına göstərilən hüquqi xidmətin səviyyəsinin yüksəldilməsi, vətəndaş məmnunluğunun təmin edilməsi, qeyri-kommersiya qurumlarının fəaliyyəti üçün əlverişli mühitin yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 20 noyabr tarixli Fərmanına əsasən yaradılmış “Fərdi elektron pəncərə” elektron məlumat sistemində müvafiq dəyişikliklər edilərək, qeyri-hökumət təşkilatlarının təsis sənədlərinə edilən dəyişikliklərin, eləcə də qeydə alınmış faktların hər bir sonrakı dəyişikliklərinin dövlət qeydiyyatının, qeyri-hökumət təşkilatları tərəfindən qəbul edilən və verilən maliyyə vəsaitlərinin qeydə alınmasının elektron müraciət əsasında “Fərdi elektron pəncərə” elektron məlumat sistemi vasitəsilə həyata keçirilməsi və müvafiq çıxarışların, bildirişlərin elektron qaydada verilməsinə dair proqram təminatı hazırlanmışdır.

Bu elektron xidmətlərin göstərilməsi üçün 2020-ci ilin 30 iyun tarixində qeydiyyat prosedurlarının hüquqi əsaslarını müəyyən edən “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında”, “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” və “Qrant haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişikliklər edilmişdir.

Fəaliyyətlərinin maliyyələşdirilməsi məqsədilə qeyri-kommersiya qurumlarına 2017-2020-ci illərdə və 2021-ci ilin ilk 9 ayı ərzində xarici maliyyə mənbələrindən verilən vəsaitlər də daxil olmaqla 804 milyon manat məbləğində maliyyə vəsaiti ayrılmışdır.

**Maddə 8***: Tərəflər milli azlığa mənsub olan hər bir şəxsin açıq şəkildə öz dininə etiqad etmək və öz əqidələrini ifadə etmək hüququnu, habelə dini müəssisələr, təşkilatlar və cəmiyyətlər yaratmaq hüququnu qəbul etməyi öz öhdələrinə götürürlər.*

Azərbaycan Respublikasının 2021-ci il 4 may tarixli Qanunu ilə “Dini etiqad azadlığı haqqında” Qanunda bir sıra dəyişikliklər edilmiş, dini təhsil, kütləvi dini ibadət, ayin və mərasimlərin keçirilməsi və digər məsələlərə dair yeni normalar müəyyən edilmişdir.

Belə ki, adıçəkilən Qanunun 1-ci maddəsinə uyğun olaraq valideynlər və ya digər qanuni nümayəndələr, qarşılıqlı razılıq əsasında, uşaqları özlərinin dini əqidəsinə və dinə münasibətinə müvafiq olaraq tərbiyə edə bilərlər. Uşaqların dinə etiqad etməyə məcbur edilməsi qadağandır. Uşaqların dini tərbiyəsi onların fiziki və psixi sağlamlığına mənfi təsir göstərməməlidir.

Eyni zamanda adıçəkilən Qanunun 21-ci maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş hallar istisna olmaqla *(Azərbaycan Respublikasında fəaliyyət göstərən dini mərkəz (idarə) tərəfindən dəvət edilmiş və ya Azərbaycan Respublikasında rəsmi səfərdə olan əcnəbi və ya*

*vətəndaşlığı olmayan din xadimi tərəfindən dini ibadət, ayin və mərasimlərin aparılmasına yol verilir)*, kütləvi dini ibadət, ayin və mərasimlərin icrası zamanı dini təlimin əsaslarının işıqlandırılması yalnız həmin Qanunla müəyyən edilmiş qaydada təyin olunmuş din xadimləri tərəfindən həyata keçirilə bilər.

Həmçinin dini ekstremizmin təbliğinə, habelə siyasi məqsədlər üçün dinlərarası və dinlərdaxili fərqlərin istifadəsinə yönəldilmiş fəaliyyət qadağandır.

Qanunun yeni redaksiyada verilən 6-cı maddəsinə əsasən vətəndaşlar fərdi qaydada və (və ya) başqaları ilə birlikdə dini öyrənə və dini təhsil ala bilərlər.

Dini təhsil müəssisələrində təhsil alanlar dövlət təhsil müəssisələrində təhsil alanlar üçün müəyyən olunmuş hüquqlardan və güzəştlərdən istifadə edirlər.

***Azərbaycanda milli-dini azlıqlar***

Ənənəvi dini konfessiyalar arasında tarixən Azərbaycanda yaşamış müxtəlif xristian və yəhudi icmalarının ardıcılları mühüm yer tutur. Azərbaycan Respublikasının Prezidenti hər il İslam dinində müqəddəs sayılan günlər və bayramlar münasibətilə xalqı təbrik etdiyi kimi, digər dinlərə mənsub olan vətəndaşların da müqəddəs bayramlarını rəsmi şəkildə təbrik edir. Ümumilikdə, ölkədə mövcud olan dini azlıqların bütün hüquqları qorunur və onların fəaliyyəti üçün hər cür şərait yaradılır. Azərbaycanda dövlətin dinə münasibəti dinlərarası bərabərlik prinsipinə əsaslanır.

Dini konfessiyalara dövlət siyasətində hər hansı ayrı-seçkilik və ya məhdudiyyət tətbiq edilmir. Onlar İslam dini icmaları ilə eyni hüquqlara malikdir. Dini konfessiyalara göstərilən maddi yardımlar, dini ibadət yerlərinin inşası və digər sahələrdə dini azlıqlara bərabər münasibət göstərilir.

*a) Azərbaycanda Xristianlıq*

Respublikamızda xristianların sayına gəlincə, Azərbaycanda Xristianlıq ardıcıllarının sayına görə İslamdan sonra ikinci yer tutur. Xristianlar ölkə əhalisinin təqribən 2 faizini təşkil edirlər. Bu dinə əsasən ruslar, beloruslar, yunanlar, gürcülər, udilər, ukraynalılar və digər bəzi azsaylı xalqların nümayəndələri etiqad bəsləyirlər.

Ölkədə həm pravoslavlar, həm katoliklər, həm qədim Şərq kilsəsinin – Alban kilsəsinin nümayəndələri olan udilər, həm də müxtəlif protestant denominasiyalar (təriqətlər), yeni dini cərəyanların ardıcılları sərbəst şəkildə öz inanclarını yaşayır, azad mühitdə öz dini ayinlərini yerinə yetirirlər.

Azərbaycanda Pravoslavlıq iki əsas kilsə ilə təmsil olunmuşdur – *Rus Pravoslav Kilsəsi* və *Gürcü Pravoslav Kilsəsi*.

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının nəzdində 7 kilsə fəaliyyət göstərir.

Pravoslav qolunun digər mənsubları – gürcü pravoslavları Qax rayonunda məskunlaşmışlar. Qax rayonunda 4 gürcü pravoslav məbədi - Qax-İngiloy kəndində “Müqəddəs Giorgi”, Kötüklü kəndində “Müqəddəs Sameba”, Meşəbaş kəndində “Müqəddəs Mixeyil” və Əlibəyli kəndində “Müqəddəs Nino” kilsələri mövcuddur.

Hazırda ölkə ərazisində beş alban-udi məbədi - Qəbələ rayonunun Nic qəsəbəsində Alban Avtokefal “Çotari” kilsəsi, Müqəddəs Məryəm Ana Alban kilsəsi, Oğuz şəhərindəki “Kiski Qerqes” ziyarətgahı, Kəlbəcər rayonunda “Xudavəng” məbədi və Laçın rayonunda “Ağoğlan” məbədi fəaliyyət göstərir.

Azərbaycan üçün səciyyəvi olan xristian istiqamətlərindən biri də ruhani Xristianlıqdır. Azərbaycanda ruhani xristianlar iki dini qol üzrə təmsil olunublar: molokanlıq və duxoborluq. Molokanlar - Bakı, Şamaxı, Sumqayıtda, İsmayıllı rayonunun İvanovka kəndində, Qobustan rayonunun Hilmilli kəndində, Gədəbəy rayonunun Novoivanovka və Novosaratovka kəndlərində, duxoborlar isə Gədəbəy rayonunun Slavyanka kəndində məskunlaşmışlar.

Hazırda katoliklər əsasən Bakı şəhərində yaşayırlar. Onların sayı təqribən 400-450 nəfərdir. Bu kontingentin də təqribən yarısını əcnəbi vətəndaşlar təşkil edir.

Azərbaycan dövləti ilə Müqəddəs Taxt-Tac arasında əlaqələr yüksək səviyyədə inkişaf edir, yerli katoliklərin dini tələbatı isə daim dövlətin diqqət mərkəzində saxlanılır. Bakının mərkəzində “Bakirə Müqəddəs Məryəm” katolik kilsəsi inşa edilmişdir. Bu kilsənin tikintisinə Qafqaz Müsəlmanları İdarəsi və Azərbaycanda fəaliyyət göstərən digər konfessiyaların nümayəndələri də maddi yardım göstərmişlər. Bundan əlavə Azərbaycanda “Şəfaətçi İsa Məsih” kiçik katolik kilsəsi də fəaliyyət göstərir.
2021-ci ildə Heydər Əliyev Fondunun və Azərbaycandakı dini icmaların təmsilçilərinin daxil olduğu nümayəndə heyəti Vatikanda səfərdə olmuşlar. Səfər zamanı Heydər Əliyev Fondu və Müqəddəs Taxt-Tacın Müqəddəs Arxeologiya Şurası arasında Müqəddəs Komodilya katakombalarının bərpasına dair yeni əməkdaşlıq müqaviləsi imzalanmışdır. Artıq on ildən çoxdur ki, Fondun dəstəyi ilə Vatikanda mühüm tarixi əhəmiyyət daşıyan dini abidələr bərpa edilir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidentinin təşəbbüsü ilə Vatikanda bu istiqamətdə əməkdaşlığın növbəti mərhələsinin icrasına başlanılmışdır.

Respublikamızda müxtəlif protestant cərəyanlar da mövcuddur. Azərbaycanda protestantlığın tarixi XIX əsrə gedib çıxır. Bazel missionerləri və alman piyetistləri Azərbaycana ilk gələn protestantlar sayılırlar. Alman piyetistləri Azərbaycanda məskunlaşaraq Anenfeld (Şəmkir), Yelenendorf (Göygöl) və digər yaşayış məskənlərinin inkişafına öz töhfələrini vermişlər. Bununla yanaşı, 2016-cı ildə Xristianların (Alban-udi, Katolik və müxtəlif protesant dini icmaları birləşdirən cəmiyyət) “Azərbaycan Bibliya Cəmiyyəti” dini icması yaradılmışdır. Sözügedən cəmiyyətin əsas məqsədi müxtəlif protestant dini icmalarını birləşdirmək və bütün dini bayramları və digər əlamətdar günləri birlikdə qeyd etməkdir. Hazırda ölkə üzrə mövcud

protestant denominasiyalar (təriqətlər) və onların üzvlərinin təqribi ümumi sayı 7000-ə yaxındır.

Azərbaycan Respublikasında aşağıdakı protestant təmayüllü dini icmalar qeydiyyatdan keçmişdir:

1. “Yeni Həyat” Xristian İncil dini icması;
2. Xilaskar Yevangelik Lüteranların Bakı dini icması;
3. “Həyat sözü” Xristian dini icması;
4. “Həyat Sözü-2” Sumqayıt xristian dini icması;
5. Bakı şəhəri Yevangelist Məsihi Baptistlərinin “Aqape” dini icması;
6. İncilə iman edən məsihçilərin “Nehemiya” dini icması;
7. Bakı şəhəri Xristian-Baptist dini icması;
8. “Şərqdə ulduz” Xristian İncil dini icması;
9. “Yeddinci Günün Adventistləri” dini icması;
10. Gəncə şəhəri Xristian-Baptist dini icması;
11. Gəncə şəhəri “Yeddinci Günün Adventistləri” dini icması;
12. Sumqayıt şəhəri Xristian-Baptist dini icması;
13. Bakı şəhər Xristian Təmayüllü Dindarların dini icması;
14. “Azərbaycan Bibliya Cəmiyyəti”;
15. “Həyatverici lütf” Xristian dini icması;
16. Bakı şəhəri “Alov” Xristian dini icması;
17. Sumqayıt şəhəri “Alov” Xristian dini icması.

Yerli protestant icmalarının nəzdində Xristianlığın əsaslarını öyrədən, Bibliyanı tədris edən müxtəlif istiqamətli dini tədris ocaqları da (“Alfa” kursları, Şənbə və Bazar günü məktəbləri, Bibliya Kolleci, Ruhani xidmət və Həmd məktəbləri) fəaliyyət göstərir.

“Yeni Apostol kilsəsi” də Azərbaycanda mövcud olan yeni xristian dini cərəyanları arasında yer alır. Onun mənsubları əsasən Bakı (70 nəfər) və Gəncə (10-15 nəfər) şəhərlərində yaşayırlar.

Respublika ərazisində “Yehovanın Şahidləri” təriqəti də mövcuddur. 2020-ci ilin statistik məlumatına əsasən bu təriqətin aktiv üzvlərinin sayı 1592 nəfərə, ümumi sayı isə 3286 nəfərə çatır. 2018-ci ildə “Yehovanın Şahidləri”nin Bakıdakı dini icması yenidən dövlət qeydiyyatından keçmişdir. Bakı şəhərində Qaradağ rayonu və Yasamal rayonu ərazisində iki ibadət evi fəaliyyət göstərir. Qanunla nəzərdə tutulmuş qaydada onların fəaliyyəti üçün tam şərait yaradılır. Məsələn, “Yehovanın Şahidləri” üçün mühüm dini bayram sayılan İsa Məsihin anım gününün qeyd olunması, eyni zamanda, bu dini icma tərəfindən mütəmadi olaraq regional yığıncaqların keçirilməsi üçün lazımi şərait yaradılmışdır və hüquq mühafizə orqanları onların təhlükəsizliyini təmin etmişdir.

*b) Azərbaycanda yəhudilik*

Əsrlər boyu Azərbaycanda yaşayıb yerli əhali ilə qaynayıb-qarışan, hətta qohumluq əlaqələri quran yəhudilərə qarşı xalqımız daim müsbət münasibət bəsləmişdir. Azərbaycanda yəhudilər əsasən Bakı, Sumqayıt, Gəncə şəhərlərində, həmçinin Quba və Oğuz rayonlarında məskunlaşmışlar. Hazırda Azərbaycanda yəhudilər 3 icma ilə - Dağ yəhudiləri, Gürcü yəhudiləri və Avropa yəhudiləri (aşkenazilər) icmaları ilə təmsil olunurlar. Bakı daxil olmaqla, Quba və Oğuz şəhərlərində 7 sinaqoq fəaliyyət göstərir. Onlardan 6-sı Dağ yəhudilərinə, 1-i isə Avropa və Gürcü yəhudilərinə aiddir. Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkədə yaşayan yəhudi icmaları dini azadlıqlarına sahib olmaqla yanaşı, beynəlxalq yəhudi təşkilatları ilə əlaqələr yaratmış, özlərinin təhsil, mədəniyyət və dini tədris müəssisələrini, qeyri-hökumət təşkilatlarını, o cümlədən mətbuat orqanlarını yaratmaq üçün bütün imkanlara malik olmuşlar. Azərbaycanda uzun tarixi keçmişə malik olan yəhudilər xalq arasında heç bir ayrı-seçkiliyə və dözümsüzlüyə məruz qalmayıblar. Azərbaycanda heç vaxt anti-semitizm təmayülləri mövcud olmamışdır.

Yəhudilər öz milli-dini bayramlarını maneəsiz qeyd edir, yəhudi uşaqları da bərabərhüquqlu Azərbaycan Respublikası vətəndaşları kimi təhsil alırlar. Hər il yəhudi xalqının yeni ili sayılan “Roş ha-Şana” bayramı münasibəti ilə ölkə Prezidenti tərəfindən Azərbaycan Respublikasındakı bütün yəhudi icmalarına təbrik ünvanlanır.

Azərbaycanda Holokost günü, yəni yəhudilərin II Dünya müharibəsi zamanı faşizm rejimi tərəfindən soyqırımına məruz qalması günü də qeyd olunur.

Yəhudilərin əksəriyyəti Respublikanın siyasi, iqtisadi, sosial, mədəni həyatında aktiv fəaliyyət göstərirlər.

2019-cu il noyabrın 15-də Bakıda Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun şərəfinə ucaldılan heykəlin açılışı olmuşdur. Milli Qəhrəmanın adını daşıyan küçədə ucaldılan heykəlin açılış mərasimində dövlət və hökumət rəsmiləri, millət vəkilləri, Azərbaycanda akkreditə olunmuş bir sıra xarici ölkə səfirliklərinin təmsilçiləri, ictimaiyyət nümayəndələri iştirak etmişlər. Eyni zamanda, 2019-cu ildə Quba rayonundakı Qırmızı qəsəbədə dünyada dağ yəhudilərinin ilk muzeyi yaradılmışdır.

Hazırda Azərbaycan Respublikasında aşağıdakı yəhudi dini icmalar qeydiyyatdan keçmişdir:

- Avropa Yəhudilərinin Bakı dini icması
- Bakı şəhəri Dağ Yəhudiləri dini icması
- Gürcü Yəhudilərinin Bakı dini icması
- Sumqayıt Yəhudiləri dini icması
- Quba rayonu Qırmızı qəsəbə Dağ Yəhudiləri dini icması
- Azərbaycan Yəhudiləri dini icması
- Oğuz şəhəri Yəhudi dini icması
- Gəncə Yəhudiləri dini icması

Azərbaycanda dini qurumların yenidən dövlət qeydiyyatına alınması prosesi başlayandan (1 sentyabr 2009-cu il) bu günədək 970 dini qurum dövlət qeydiyyatına alınıb. Konfessional baxımdan onlardan 933-ü İslam, 37-si isə qeyri-islam (xristian – 26; yəhudi – 8; krişna – 1; bəhai – 2) təmayüllüdür.

Eyni zamanda, 11 dini təhsil müəssisəsi (kollec) dövlət qeydiyyatından keçib**.**

Azərbaycan Respublikasında İslam dini qurumları öz tarixi İslam dini mərkəzində-Qafqaz Müsəlmanları İdarəsində birləşdiyi halda, qeyri-islam dini icmalarının xaricdə fəaliyyət göstərən dini mərkəzlərə tabe olmaq və tabeliyini dəyişdirmək hüququ var. Həmçinin, təşkilati mərkəzləri xaricdə olan qeyri-islam dini qurumları öz fəaliyyətində Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan hallarda həmin mərkəzlərin nizamnamələrini rəhbər tuta bilərlər. Hazırda qeyri-islam dini qurumlarının böyük əksəriyyətinin, o cümlədən Rus Pravoslav, Katolik, Lüteran, Gürcü-pravoslav kilsələrinin dini mərkəzləri xaricdə yerləşir və bu kilsələrdə, eləcə də protestant və yəhudi dini icmalarında dini ayinlərə rəhbərlik edən din xadimləri xaricdəki mərkəzlərdən təyin olunurlar.

Bundan əlavə, Azərbaycanda mövcud olan dini mərkəz və idarələr xarici ölkələrdəki müvafiq mərkəzlərlə işgüzar əlaqələr saxlayır, beynəlxalq dini tədbirlərdə yaxından iştirak edirlər.

Ölkədəki dini durumun sabit və tolerantlığın səviyyəsinin yüksək olması, dini əqidəsinə görə vətəndaşlar arasında heç bir ayrı-seçkiliyin olmaması həmin dini qurumlara öz ibadət evlərində hüquqi şəxs kimi sərbəst fəaliyyət göstərməyə, dini ayinləri yerinə yetirməyə, dini bayramlar və mərasimlər keçirməyə əlverişli şərait yaradır. Onların azad şəkildə ibadəti təmin olunur.

Bütün dini icmalara qeydiyyat zamanı bərabər şərait yaradılmış, onların sənədlərinin hazırlanması, qəbulu, qanunvericiliyə uyğunluğunun yoxlanılması və dövlət qeydiyyatının aparılması lazımi səviyyədə təşkil olunmuşdur.

Hazırda dini qurumların dövlət qeydiyyatı prosesi davam etdirilir.

Dini icmalar və ibadət evləri ilə yanaşı, respublika ərazisində xristian və yəhudi dini tədris müəssisələri, o cümlədən ortodoks kilsələri yanında bazar günü məktəbləri, protestant icmalarının Bibliya kursları, yəhudilərin ivrit dilini, yəhudi dini və mədəniyyətini öyrətmə kursları və s. fəaliyyət göstərir.

Həmçinin, Azərbaycanda krişna şüuru və bəhai dini icmaları da mövcuddur və onlara məxsus ibadət evləri fəaliyyət göstərir.

İstər müsəlman, istərsə də qeyri-müsəlman vətəndaşlarımız, Azərbaycanda bütün dini konfessiyalar daim vahid mövqe nümayiş etdirərək həmrəylik nümunəsi göstərirlər. Buna bariz nümunə kimi, pandemiya dövründə və 44 günlük Vətən müharibəsində bütün dinlərin və

millətlərin nümayəndələrinin nümayiş etdirdiyi birlik qeyd edilməlidir. Belə ki, Azərbaycanda yaşayan hər bir millətin nümayəndəsi ölkənin ərazi bütövlüyünü təmin etmək məqsədilə könüllü olaraq ordu sıralarına yazılmışdır. Onların arasında hərbi əməliyyatlar zamanı qəhrəmancasına həlak olanlar da olmuşdur.

Hərbi əməliyyatlar zamanı diqqət çəkən məqamlardan biri Ermənistanın təcavüzkar siyasətini və əməllərini gizlətmək üçün bu müharibəyə dini don geyindirməyə, onu müsəlman-xristian münaqişəsinə çevirməyə cəhd etməsi olmuşdur. Lakin Ermənistanın bu cür təxribatçı siyasəti iflasa uğramışdır. 44 günlük Vətən müharibəsi ilə bağlı Azərbaycan həqiqətləri barədə Azərbaycanda fəaliyyət göstərən qeyri-islam dini icmalarının (əsasən Xristian və Yəhudi) rəhbərləri tərəfindən xarici ölkələrin müxtəlif rəsmi şəxslərinə və qurumlarına, dini sahə ilə məşğul olan xarici və beynəlxalq təşkilatlara, habelə xaricdə fəaliyyət göstərən dini mərkəzlərə xarici dillərdə müraciətlər ünvanlanmışdır.

Azərbaycandakı protestant icmalarından olan Bakı şəhəri “Alov” xristian dini icmasının dəvəti ilə ABŞ-ın “Samaritan's Purse” humanitar təşkilatının rəhbər şəxsləri Azərbaycanda olmuş, döyüş bölgəsindən kənarda yerləşən və Ermənistan silahlı qüvvələrinin ballistik raketlərinin hədəfinə çevrilmiş Gəncə şəhərinə səfər etmişlər. Onlar şəhərin raket hücumu nəticəsində dağılmış yerlərini ziyarət etmiş, bundan zərər görmüş sakinlərə yardımlar etmişlər.

Eyni zamanda, Azərbaycandakı protestant icmalarından olan “Azərbaycan Bibliya Cəmiyyəti”nin sifarişi ilə koronavirus pandemiyası ilə mübarizədə Azərbaycan vətəndaşlarını daha məsuliyyətli olmağa çağırmaqla mənəvi borclarının bir daha yada salınması məqsədilə “Mənəvi borc” filmi çəkilmiş, Bakı şəhəri Yevangelist Məsihi Baptistlərinin “Aqape” dini icması isə "Qarabağda məhv edilən Azərbaycan dini abidələri" adlı layihə həyata keçirmişdir. Həmin layihə çərçivəsində Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazilərində ermənilər tərəfindən məhv edilən dini abidələr araşdırılmış, bu barədə rus və ingilis dillərində məqalələr və videoçarx hazırlanaraq sosial media vasitəsilə ölkə xaricində işıqlandırılmışdır.

**Maddə 9***: 1. Tərəflər bunu qəbul etməyi öz öhdələrinə götürürlər ki, milli azlıqlara mənsub olan hər bir şəxsin öz fikirlərini azad ifadə etmək azadlığı hüququna hər hansı bir fikrə tərəfdar olmaq azadlığı və ictimai hakimiyyət orqanlarının heç bir müdaxiləsi olmadan və dövlət sərhədlərindən asılı olmayaraq, azlığın öz dilində informasiya və ideyaları almaq və mübadilə etmək azadlığı daxildir. Tərəflər öz hüquq sistemləri çərçivəsində milli azlığa mənsub şəxslərin informasiya vasitələrindən istifadəyə yol tapmasında ayrı-seçkiliyə məruz qalmamalarını təmin edir. 2. Bu maddənin birinci bəndi tərəflərə heç bir ayrı-seçkiliyə yol vermədən, obyektiv kriteriyalar əsasında radio, televiziya verilişləri və yaxud kinematoqrafiya müəssisələrini lisenziyalaşdırmaqda əngəl törətmir. 3. Tərəflər, milli azlığa mənsub olan şəxslərin mətbu informasiya vasitələri yaratmalarına və onlardan istifadə etmələrinə mane olmurlar. Onlar radio və televiziya verilişlərinin hüquqi əsasları çərçivəsində mümkün olduğu qədər və birinci bəndin müddəalarını nəzərə alaraq, milli azlığa mənsub olan şəxsləri, öz informasiya vasitələrini yaratmaq və onlardan istifadə etmək imkanları ilə təmin edirlər. 4. Tərəflər hüquqi sistemləri çərçivəsində dözümlülüyü təşviq etmək və mədəniyyət plüralizmini təmin etmək naminə milli azlıqlara mənsub olan*

*şəxslərin informasiya vasitələrinə maneəsiz yol tapmasını yüngülləşdirmək üçün bütün lazımi tədbirləri görürlər.*

Etnik azlıqların və azsaylı xalqların mədəniyyətlərinin inkişafı, xüsusən də ana dilində təhsil alması, radio və televiziyada öz dillərində proqramları izləməsi, ana dilində mütəmadi olaraq kitablar, jurnallar, dərslik və lüğətlər nəşr etdirməsi, bədii özfəaliyyət kollektivlərinin fəaliyyəti, etnik muzeylərin fəaliyyəti, xalq tətbiqi sənətinin inkişafı üçün əlverişli şərait yaradılmışdır.

"Kütləvi informasiya vasitələri haqqında" Qanunun 14-cü maddəsinin 1-ci hissəsinə əsasən mətbu nəşrlərin təsis edilməsi üçün dövlət orqanlarından icazə tələb olunmur. Sadələşdirilmiş prosedurlar hazıradək 5.375 mətbu nəşrin uçota alınması ilə nəticələnmişdir. Milli azlıqlara mənsub olan şəxslərin 11 mətbu nəşri Ədliyyə Nazirliyi tərəfindən uçota alınmış və maneəsiz fəaliyyət göstərir.

Baki Beynəlxalq Multikulturalizm Mərkəzinin təşəbbüsü və iştirakı ilə 2018-ci ilin oktyabr ayından etibarən Azərbaycan Respublikasının rəsmi telekanalı olan "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin efirində «Multikulturalizm» adlı proqram (artıq 40-a qədər veriliş yayımlanıb) yayımlanır və fəaliyyəti hazırda davam etdirilir. Proqrama Azərbaycanda yaşayan etnik azlıqların və azsaylı xalqların, müxtəlif konfessiya nümayəndələri ilə birlikdə ölkədəki polikultural mühit, etno-mədəni və etno-dini əlaqələrin inkişaf etdirilməsi və möhkəmləndirilməsi yolları, eləcə də perspektivlər müzakirə olunur, qarşıya çıxan çətinliklərin operativ həlli üçün müvafiq təklif və tövsiyyələr verilir.

Bundan başqa, Azərbaycan radiosunda kürd, ləzgi, talış, gürcü, rus, erməni dillərində dövlət büdcəsindən maliyyələşdirilən müntəzəm radio verilişləri yayımlanır. Hazırda bir ay ərzində Azərbaycan radiosunda talış, kürd, ləzgi dillərində ayrı-ayrılıqda 1 saat 20 dəqiqə, gürcü dilində 2 saat 40 dəqiqə, erməni dilində 1 saat 30 dəqiqə, rus dilində isə 15 saat verilişlər yayımlanır. Azərbaycanda yaşayan etnik icmaların dillərində 15-dən çox qəzet və jurnal nəşr olunur, milli azlıqlara mənsub olan şəxslərin kompakt yaşadığı bölgələrdə 5 yerli tele-radio kanalları fəaliyyət göstərir. Milli azlıqlara mənsub olan şəxslərin dillərində müntəzəm olaraq poeziya və nəsr topluları, folklor nümunələri, lüğətlər nəşr edilib yayılır və bu iş uğurla davam etdirilməkdədir. Bu gün respublikada milli azlıqlara mənsub olan şəxslərin məsələləri ilə məşğul olan 50-dən çox QHT, milli mədəniyyət mərkəzləri, ictimai birliklər və cəmiyyətlər fəaliyyət göstərir.

Hesabat dövrü ərzində Baki Beynəlxalq Multikulturalizm Mərkəzinin illik büdcəsindən Azərbaycanda yaşayan xalqların ana dillərində kitabların yazılması və çap olunması üçün xeyli vəsait ayrılmışdır. Belə ki, Baki Beynəlxalq Multikulturalizm Mərkəzinin maliyyə dəstəyi ilə Azərbaycanda yaşayan etnik azlıqların və azsaylı xalqların ana dillərində 10-dək kitab, o cümlədən, "Qafqaz Albaniyasının etno-mədəni irsi" (Azərbaycan, rus və ingilis dillərində), "Azərbaycan multikulturalizmi: Etnik müxtəliflik xəzinəsi" (ingilis dilində), "Qarabağın Alban abidələri," "XX-XI əsr talış poeziyası antologiyası" (talış dilində), Qurban Səidin "Əli və Nino" romanı (talış, ləzgi və udi dillərində), "Xwezıla" (Kaş ki) povesti (kürd dilində) və s. nəşr olunmuşdur.

Multikulturalizm sahəsində Azərbaycanda həyata keçirilən dövlət siyasətinin təbliği, milli və dini azlıqların dilinin, mədəniyyətinin, adət-ənələrinin qorunması, ölkə əhalisinin maarifləndirilməsi, həmçinin bir neçə xarici dildə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində 2015-ci ildə "Kultura Plus" (www.kulturaplus.az) internet televiziyası fəaliyyətə başlamışdır. 2016-cı ildən Bakıda nəşr edilən "Multikulturalizm" jurnalında müasir dünyada multikulturalizmin aktual problemləri ilə yanaşı, Azərbaycanda yaşayan milli azlıqlara mənsub olan şəxslərin dil və mədəniyyətinə, adət-ənənələrinə dair materiallara geniş yer verilir, onların dillərində poeziya və nəsr nümunələri çap olunur.

**Maddə 10***: 1. Tərəflər, milli azlıqlara mənsub olan hər bir şəxsin öz şəxsi həyatında və ictimai yerlərdə öz milli azlığının dilindən sərbəst və maneəsiz istifadə etmək hüququna malik olduğunu qəbul edirlər. 2. Milli azlıqlara mənsub olan şəxslərin xeyli sayda və ənənəvi olaraq yaşadıqları regionlarda, əgər bu şəxslər bu barədə xahiş edərlərsə və bu xahiş real tələbatlara cavab verərsə, onda tərəflər, mümkün olduğu qədər həmin azlıqların dilindən bu şəxslərlə inzibati hakimiyyət orqanları arasındakı münasibətlərdə istifadə olunmasına imkan verən şəraiti təmin etməyə çalışacaqlar. 3. Tərəflər, milli azlıqlara mənsub olan istənilən şəxsin, özünün həbs olunması səbəbləri, ona qarşı irəli sürülən ittihamın xarakteri və səbəbləri barədə qısa müddət ərzində, başa düşdüyü dildə məlumat almaq, habelə müdafiəni bu dildə aparmaq və bu zaman, lazım gələrsə, pulsuz tərcüməçi yardımını almaq hüququna təminat verməyi öhdələrinə götürürlər.*

Azərbaycanda milli azlıqlara mənsub olan şəxslərin 98,8%-i öz ana dillərində sərbəst danışır və etnik mədəniyyətlərinin fəal daşıyıcılarıdırlar. Etnik azlıqların və azsaylı xalqların hüquq və azadlıqları dövlət tərəfindən qorunur. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsinə əsasən, Azərbaycan dövlət etnik, dini, irqi mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların öz ana dillərinin öyrənilməsini, sərbəst işlədilməsini və inkişafını, etnik mədəniyyətlərinin, inanclarının qorunmasını müvafiq qanunvericilik aktları ilə təmin edir.
Ölkədə etnik azlıqların və azsaylı xalqların mədəniyyətlərinin inkişafı, xüsusən də ana dilində təhsil alması, radio və televiziyada öz dillərində proqramları izləməsi, ana dilində mütəmadi olaraq kitablar, jurnallar, dərslik və lüğətlər nəşr etdirməsi, bədii özfəaliyyət kollektivlərinin fəaliyyəti, etnik muzeylərin fəaliyyəti, xalq tətbiqi sənətinin inkişafı üçün əlverişli şərait yaradılmışdır.

**Maddə 11***: 1. Tərəflər, milli azlıqlara mənsub olan hər bir şəxsin öz adı, soyadı və atasının adından bu azlığın dilində istifadə etmək hüququnu, eləcə də bu dövlətlərin hüquq sistemində təsbit olunmuş tələbinə uyğun olaraq onların rəsmən qəbul edilməsi hüququnu qəbul etməyi öz öhdələrinə götürürlər. 2. Tərəflər, milli azlıqlara mənsub olan hər bir şəxsin ictimai yerlərdə, öz azlığının dilində özəl xarakterli lövhələr, yazılar və digər informasiyalar yerləşdirmək hüququnu qəbul etməyi öz öhdələrinə götürürlər. 3. Milli azlıqlara mənsub olan şəxslərin xeyli sayda, ənənəvi olaraq yaşadıqları rayonlarda, tərəflər, zəruri hallarda digər dövlətlərlə saziş bağlamaq da daxil edilməklə, öz hüquq sistemləri çərçivəsində konkret şəraiti nəzərə almaqla ənənəvi yer adları, küçə adları və digər topoqrafik məlumatlar, əgər belə məlumatlara kifayət qədər ehtiyac varsa, əhali üçün həm də azlıqların dilində göstərilməsini təmin edirlər.*

Milli qanunvericilikdə inzibati ərazi vahidlərin, habelə coğrafi obyektlərin adlarının milli azlıqların dilində də yazıla bilməsini təmin edən müddəalar mövcud deyil.

Belə ki, "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun 9-cu maddəsində müəyyən olunmuşdur ki, "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Qanuna uyğun olaraq Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünü təşkil edən inzibati ərazi vahidlərinin – şəhər, rayon, inzibati ərazi dairəsi, qəsəbə və kəndlərin adları dövlət dilində yazılmalıdır.

Həmçinin "Coğrafi obyektlərin adları haqqında" Qanunun 7.3 və 7.4-cü maddələrinə görə Azərbaycan Respublikasının ərazisindəki yol nişanlarında, reklamlarda, lövhələrdə və digər göstəricilərdə coğrafi obyektlərin adları dövlət dilində yazılır.

**Maddə 12***: 1. Tərəflər, lazım gələrsə, həm öz milli azlıqlarının, həm də əhalinin əsas hissəsinin mədəniyyəti, tarixi, dili və dini ilə bağlı bilikləri yaxşılaşdırmaq məqsədilə təhsil və elmi tədqiqatlar sahəsində tədbirlər görürlər. 2. Bu kontekstdə, tərəflər, əsasən, müəllimlərin hazırlanması, məktəblərin dərsliklərlə təmin olunması və müxtəlif icmalardan olan müəllim və şagirdlər arasında əlaqələrin asanlaşdırılması üçün lazımi şərait yaradırlar. 3. Tərəflər, bütün səviyyələrdə təhsilə yol tapmaq üçün milli azlıqlara mənsub olan şəxslərə bərabər imkanlar təmin etməyi öz öhdələrinə götürürlər.*

"Ümumi təhsil haqqında" Qanunun 5.2-ci maddəsində dövlət tərəfindən cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, etnik mənsubiyyətindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa ümumi təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verildiyi müəyyən olunmuşdur.

Həmçinin Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli Qərarı ilə təsdiq edilmiş "Dövlət məktəbəqədər təhsil müəssisələrində təhsilalanların sosial müdafiəsi Qaydası"nın 1.2-ci bəndində uşaqların irqinə, etnik mənsubiyyətinə, dininə, dilinə, cinsinə, mənşəyinə görə ayrı-seçkiliyə yol verilmədiyi göstərilmişdir. Bundan başqa Nazirlər Kabinetinin 2018-ci il 26 fevral tarixli Qərarı ilə təsdiq edilmiş "Sağlamlıq imkanları məhdud olan məktəbəqədər yaşlı uşaqların təhsilinin dövlət standartları"n 2.1-ci bəndində xüsusi məktəbəqədər təhsilin məzmununu müəyyən edən didaktik prinsiplər (nəticəyönlülük, şəxsiyyətyönlülük, fərdilik, dünyəvilik, müxtəlifliyin qəbul olunması və s.) əks olunmuşdur. Müxtəlifliyin qəbul olunması prinsipi fiziki, psixi, intellektual, mədəni-etnik, dil və digər xüsusiyyətlərindən asılı olmayaraq, bütün uşaqların bərabər şəkildə təhsil sistemində iştirakını nəzərdə tutur.

Hazırda Azərbaycanın ali təhsil müəssisələrində bakalavriat səviyyəsində "Multikulturalizmə giriş", magistratura səviyyəsində isə "Azərbaycan multikulturalizmi modeli" adlı fənlər tədris edilir. Baki Beynəlxalq Multikulturalizm Mərkəzi tərəfindən universitetlərdə "Multikulturalizmə giriş" və "Azərbaycan multikulturalizmi" fənlərini tədris edən müəllimlərin hazırlanmasına xüsusi önəm verilmiş, onlar zəruri materiallar, məlumatlarla təmin edilmişdir. "Azərbaycan

multikulturalizmi” fənni eyni zamanda ilk peşə-ixtisas təhsili müəssisələrində tədris olunmağa başlanmışdır.

Azərbaycanın dövlət ümumtəhsil məktəblərində istifadə olunan rus dili (həm xarici dil kimi, həm də tədris dili kimi), ləzgi dili və avar dili dərslikləri ənənəvi olaraq daimi əsasda Azərbaycan Respublikasında hazırlanır. Azərbaycanda fəaliyyət göstərən təlim gürcü dilində olan məktəblər üçün isə yalnız gürcü dili və gürcü ədəbiyyatı dərslikləri Hökumətlərarası Komissiyanın Protokoluna əsasən Gürcüstan tərəfindən təmin edilir. Digər milli azlıqlara mənsub olan şəxslərin dilləri üzrə hazırlanan bütün dərslik komplektlərinin hazırlanması və müstəqil ekspertizası milli azlıqlara mənsub olan şəxslərin nümayəndələri tərəfindən həyata keçirilir. Eyni zamanda bütün dərsliklər nəşr edilməmişdən əvvəl ictimai müzakirəyə təqdim olunur, həmin dərsliklərə Azərbaycanda yaşayan bütün milli azlıqlara mənsub olan şəxslərin nümayəndələri rəy bildirmək imkanına malik olur. Bundan başqa, gürcü dilindəki dərsliklərə Gürcüstanın müvafiq dövlət qurumu tərəfindən rəy bildirilir. Tarix və coğrafiya dərsliklərində Azərbaycanda yaşayan bütün xalqların və həmçinin milli azlıqlara mənsub olan şəxslərin mədəniyyəti, tarixi və dili ilə bağlı məlumatlar əks olunmuşdur.

Milli azlıqlara mənsub olan şəxslərin tarixi-mədəni dəyərlərinin təbliği ilə bağlı Uşaq-gənclər inkişaf mərkəzlərinin 2000-ə yaxın pedaqoji və şagird kollektivinin aparıcı muzeylərə, tarixi abidələrə, ev muzeylərinə, dövlət tarix-memarlıq qoruqlarına ekskursiyaları təşkil edilmişdir. 2017-2019-cu illərdə dərnək üzvləri Alban məbədlərinə, Qədim Qəbələ tarix-diyarşünaslıq muzeyinə, Çuxur Qəbələ muzeyinə, “Azərbaycan Udi ocağı” etnoqrafik park muzeyinə, “Çotari” Alban-Udi kilsəsinə, Balakən rayonunda yerləşən “Qazma kurqanı”na, Zaqatala rayonunda yerləşən Mamrux Alban Məbədi qalıqlarına, Cingöz qalaya ziyarət etmişlər.

**Maddə 13***: 1. Tərəflər, öz təhsil sistemləri çərçivəsində, milli azlıqlara mənsub olan şəxslərin təhsil sahəsində özəl tədris müəssisələri yaratmaq və onları idarə etmək hüququnu qəbul edirlər. 2. Bu hüququn həyata keçirilməsi tərəflər üçün heç bir maliyyə öhdəliyi nəzərdə tutmur.*

Son illərdə milli azlıqlara mənsub olan şəxslərin təhsil aldığı özəl məktəbəqədər və ümumi təhsil müəssisələrinin sayı da artmışdır. “Tolerantlığın ünvanı - Azərbaycan” layihəsi çərçivəsində Heydər Əliyev Fondu və “Or-Avner” Beynəlxalq Fondu tərəfindən milli azlıqlara mənsub olan şəxslərin (yəhudi icmasının) təhsil aldığı “Xabad Or-Avner” təhsil müəssisəsi inşa edilmişdir. “Xabad-Or-Avner” təhsil müəssisəsinin müraciəti əsasında Təhsil Nazirliyi tərəfindən məktəbə tədris vəsaitləri ilə təminat və infrastrukturla bağlı yardım göstərilmişdir. Məktəbin nəzdində yəhudi uşaqlarına xidmət edən baxça da fəaliyyət göstərir.

**Maddə 14***: 1. Tərəflər, milli azlıqlara mənsub olan hər bir şəxsin öz azlığının dilini öyrənməsi hüququnu qəbul etməyi öz öhdələrinə götürürlər. 2. Tərəflər, mümkün olduğu qədər və öz təhsil sistemləri çərçivəsində, milli azlıqların xeyli sayda və ənənəvi olaraq yaşadıqları bölgələrdə, buna kifayət qədər tələbat olduğu halda milli azlıqlara mənsub olan şəxslərin öz azlıqlarının dillərini öyrənmək və həmin dildə təhsil almaq imkanına malik olmalarını təmin etməyə çalışırlar.*

*3. Hazırkı maddənin ikinci bəndinin müddəaları rəsmi dilin öyrənilməsinə və bu dildə təlimə xələl gətirmədən həyata keçirilir.*

Azərbaycan Respublikasında milli və dini azlıqlarla əlaqədar dövlət siyasəti, xüsusilə də multikulturalizm və tolerantlıq siyasəti, onların fəlsəfi-nəzəri təhlili və təcrübəsinin tədqiqi və təbliğinə dair məsələlərlə baglı 2017-2021-ci illər ərzində AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunda 119 elmi tədqiqat işi yerinə yetirilmişdir. İnstitutun 2017-2021-ci illərdə nəşr etdiyi bir sıra kitablarda və məqalələrdə Azərbaycanda milli və dini azlıqların vəziyyəti, onlarla əlaqədar dövlət siyasətinin elmi-nəzəri-fəlsəfi aspektləri tədqiq edilmiş, elmi nəticələr ortaya qoyulmuşdur. Multikulturalizm, hesabat dövründə milli və dini azlıqlar mövzuları ilə bagly Fəlsəfə və Sosiologiya İnstitutunda 2 qrant layihəsi də icra edilmişdir.

2017-ci ildən başlayaraq hər il "Təhsildə inkişaf və innovasiyalar" adlı qrant müsabiqəsi həyata keçirilir. Sözügedən müsabiqələrində milli azlıqlara mənsub olan şəxslərlə bağlı aşağıdakı layihələrin icrası uğurla başa çatdırılmışdır:

- Balakən rayonunda azsaylı xalqlar arasında Azərbaycan dilinin təbliği;
- Qusar rayonunda ləzgi dilinin öyrədildiyi məktəblərdə inteqrativ təhsil;
- Qəbələ rayonunda "Fərqli mədəniyyətlər və istedadlar bir bayraq altında" adlı tədbir.

Azərbaycanın orta ümumtəhsil məktəblərində tədris 3 dildə - Azərbaycan, rus və gürcü dillərində aparılır. Milli azlıqlara mənsub olan şəxslərin sıx yaşadıqları rayonların orta məktəblərində (ibtidai siniflərdə) ana dili dərslərinin tədrisi (avar, kürd, ləzgi, talış, saxur, tat, udi, xınalıq, ivrit dillərində) təşkil olunmuş (daha ətraflı I Hissənin "d" bəndində və Əlavə 1-də göstərilib), milli dillərdə dərsliklər və proqramlar tərtib edilmişdir. Dövlət vəsaiti hesabına rus, avar, talış, kürd, ləzgi, saxur, tat, udi, xınalıq və s. dillərdə əlifbalar, tədris proqramları və digər dərsliklər, məktəbli lüğətləri çap olunur və bu iş mütəmadi olaraq davam etdirilir. Hazırda Azərbaycanda təlim yalnız rus dilində olan 16 və təlim yalnız gürcü dilində olan 6 orta ümumtəhsil məktəbi, 345 beynəlmiləl orta məktəb (Azərbaycan-rus, Azərbaycan-gürcü, Azərbaycan-rus-gürcü dillərində) fəaliyyət göstərir. Respublikamızın 13 rayonunda yaşayan etnik qrupların uşaqlarına öz milli adət və ənənələrini, mədəniyyətini öyrənmələri üçün lazımi şərait yaradılıb.

**Maddə 15:** *Tərəflər, milli azlıqlara mənsub olan şəxslərin, mədəni, ictimai və iqtisadi həyatda, habelə dövlət işlərinin, xüsusilə də onların mənafeyi ilə bağlı olan dövlət işlərinin idarə olunmasında səmərəli iştirak etmələri üçün lazımi şərait yaratmağı öz öhdələrinə götürürlər.*

Azərbaycanda geniş təbliğ olunan və ölkədəki polikultural, multikultural ənənələrə söykənən Azərbaycançılıq ideyasına uyğun olaraq, ölkədə vətəndaşların etnik və dini identikliklərinə eyni səviyyədə təminat verilir. Azərbaycanda multikulturalizm siyasətinin dayanıqlığını və möhkəmləndirilməsini şərtləndirən başlıca amil isə hüquq bərabərliyini təmin edən vətəndaş identikliyinin üstün statusa malik olmasıdır. Milli azlıqlara mənsub olan şəxslərin Azərbaycan Respublikasının mərkəzi idarəetmə və icra strukturlarında, Parlamentdə, hüquq-mühafizə sistemində kifayət qədər geniş təmsil olunurlar. Dövlət strukturlarında milli azlıqlara mənsub

olan şəxslərin nümayəndələri birinci və ya ikinci şəxslər, idarə rəisləri, şöbə müdirləri, rayon icra hakimiyyəti başçıları və müavinləri və s. kimi çoxşaxəli rəsmi vəzifələrdə çalışırlar. Eyni zamanda, azlıqların kompakt yaşadığı bölgələrin dövlət strukturlarında və yerli özünüidarəetmə orqanlarında milli azlıqlara mənsub olan şəxslərin təmsilçiləri mütləq əksəriyyət təşkil edirlər.

Hazırda ədliyyə orqanlarında 53-ü qadın olmaqla, 99 milli azlıq nümayəndəsi çalışır (onlardan 4-ü rəhbər vəzifədə).

Daxili işlər orqanlarında bir çox millətlərin, o cümlədən rus, belarus, tatar, yəhudi, gürcü, məhsəti türkü, tat, talış, kürd, ləzgi, avar, çərkəz, saxur, lak, udi millətlərinin 2000-ə yaxın (6%) nümayəndəsi xidmət edir.

Azərbaycan Respublikası Milli Məclisin V çağırış (2015-2020) deputatlarından 122 nəfər azərbaycanlı, 1 nəfər rus, 1 nəfər ləzgi, 1 nəfər isə yəhudi idi.

Hal-hazırda bir palatadan ibarət olan 125 nəfərlik Milli Məclisdə 120 deputat yer alır. Onlardan 117 nəfəri azərbaycanlıdır, 1 nəfəri rus, 1 nəfəri ləzgi, 1 nəfəri isə dağ yəhudisidir.

Azərbaycan Respublikasında milli azlıqlara mənsub olan şəxslərin 3 dövlət teatrı (Bakıda Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı, Qusar rayonunda Ləzgi Dövlət Dram Teatrı, Qax rayonunda Qax Dövlət Gürcü Dram Teatrı) fəaliyyət göstərir. Qusar Teatrının 63 əməkdaşının 60 nəfəri ləzgi, Dövlət Gürcü Dram Teatrının 40 nəfər əməkdaşının 38 nəfəri gürcüdür. Qusar Teatrında tamaşalar ləzgi dilində, Qaxda isə gürcü dilində nümayiş olunur. Həm Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında, həm də Qusar və Qax Dövlət Teatrlarında fəaliyyət göstərən milli azlıqlara mənsub olan şəxslərin istedadlı nümayəndələri rəhbər vəzifələrə təyin olunmuş, rejissor və aktyorlar yüksək fəxri adlara, Prezident mükafatlarına, Prezident təqaüdlərinə, orden və medallara layiq görülmüşdürlər. Bu teatrlarda mütəmadi olaraq dövlət sifarişi ilə tamaşalar hazırlanır. Teatr kollektivləri Mədəniyyət Nazirliyinin maliyyə dəstəyi ilə respublika və beynəlxalq səviyyəli festivallarda iştirak edir.

Bütün AMEA strukturunda, o cümlədən, Fəlsəfə və Sosiologiya İnstitutunda, Azərbaycan cəmiyyətində olduğu kimi milli azlıqlara mənsub olan şəxslərin nümayəndələri çalışmaqdadırlar. Onların içərisində şöbə müdiri, aparıcı elmi işçi vəzifələrini tutan professorlar, dosentlər və digər elmi işçilər vardır.

Milli azlıqlara mənsub olan şəxslərin yaşadığı regionlarda da tibb işçilərinin bilik və peşə bacarıqlarının artırılmasına Səhiyyə Nazirliyi tərəfindən xüsusi diqqət yetirilmişdir. Xarici ölkələrin aparıcı klinikalarında təkmilləşdirmə kurslarında ixtisaslarını artırmaq üçün göndərilən mütəxəssislərin təqribən 20%-i milli azlıqlara mənsub olan şəxslərin nümayəndələridir.

Azərbaycan səhiyyəsinin inkişafında müstəsna xidmətlərinə görə milli azlıqlara mənsub olan şəxslərin nümayəndələri “Əməkdar həkim”, “ Fəxri Fərman” “Əməkdar elm xadimi ” fəxri adları verilmiş, habelə “Tərəqqi” medalı ilə təltif edilmişlər.

**Maddə 16:** *Tərəflər milli azlıqlara mənsub olan şəxslərin yaşadığı hər hansı bir regionda əhalinin struktur tərkibini dəyişərək, hazırkı Çərçivə Konvensiyasında ifadə edilən prinsiplərdən yaranan hüquq və azadlıqları məhdudlaşdırmaq məqsədini güdən tədbirləri görməkdən imtina edirlər.*

Qeyd olunmalıdır ki, münaqişənin başa çatması ilə əlaqədar Azərbaycan münaqişə sonrası bərpa, yenidənqurma və reinteqrasiyanı əhatə edən yeni mərhələyə qədəm qoymuşdur. Münaqişə sonrası dövrdə sülhün saxlanması, bərpa və yenidənqurma fəaliyyətləri və məcburi köçkünlərin öz torpaqlarına qayıtması Azərbaycan üçün mütləq prioritetdir. Eyni zamanda, Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulduqdan sonra münaqişənin təsirinə məruz qalmış ərazilərdə bütün vətəndaşların bərabərhüquqluluq əsasında ölkənin siyasi, hüquqi, iqtisadi və sosial sisteminə reinteqrasiya edilməsi Azərbaycan tərəfinin dəfələrlə bəyan etdiyi kimi, Azərbaycan üçün münaqişədən sonrakı siyasətin əsas prioritetlərindən biri olmaqla, hərbi işğalın yaratdığı nəticələrin aradan qaldırılmasına uyğun şəkildə münaqişənin təsirinə məruz qalmış ərazilərdə erməni mənşəli şəxslərə münasibətdə Çərçivə Konvensiyasının müddəalarının həyata keçirilməsi təmin olunacaqdır. Azərbaycan Respublikasının Konstitusiyası, müvafiq milli qanunları və qoşulduğu beynəlxalq sənədlər, o cümlədən hazırkı Konvensiya bu sahədə möhkəm hüquqi bazanı təmin edir.